RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 147 (8740) CÜMƏ, 16 iyul 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## “Şəhid ailələri, Qarabağ qaziləri bilməlidirlər ki, biz daim onların yanındayıq, sözdə yox, əməldə”



### Prezident İlham Əliyev dövlətin bu siyasətinin davamlı olduğunu bir daha bəyan etdi

Bütün dünyada pandemiyanın yaratdığı iqtisadi çətinliklər olsa da, ölkəmizdə həyata keçirilən uğurlu dövlət siyasəti sayəsində heç bir sosial layihə təxirə salınmayıb. Xüsusilə əhalinin həssas təbəqəsinin sosial qayğılarının həlli istiqamətində ardıcıl işlər aparılır. Bu il iyulun 14-də Prezident İlham Əliyevin Bakının Binəqədi rayonunun Xocasən qəsəbəsində şəhid ailələri və müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak etməsi həmin tədbirlərin davamlı xarakter daşıdığını bir daha təsdiqləyir.

Burada 810 mənzilli yaşayış kompleksi - 15 doqquzmərtəbəli bina tikilib. Bu dəfə 300 şəhid ailəsi və müharibə əlili mənzillə təmin edilib. Kompleksin ərazisində uşaq bağçası və məktəb də inşa olunub.

Beləliklə, şəhid ailələrinin və müharibə əlillərinin mənzillərlə təmin olunması məsələsi dövlətimizin sosial siyasətinin ayrılmaz hissəsi kimi yenə də gündəmdədir. Yeni kompleks də daxil olmaqla bu günədək 10 min şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlərlə təmin olunub. Təkcə keçən ilə aid göstəricini xatırlatmaq kifayətdir. İl ərzində 1572 şəhid ailəsi və Qarabağ qazisi müasir ev və mənzil sahibi oldu. İyulun 14-dəki görüşdə Prezident İlham Əliyev ötən il bu qəbildən olan vətəndaşlarımıza verdiyi vədi xatırladı: “Demişdim ki, 2021-ci ildə biz öz vətəndaşlarımızı daha böyük sayda evlərlə, mənzillərlə təmin etməliyik və bu gün bunun nəticələrini görürük. Bu il 3 minədək şəhid ailəsi, müharibə əlili evlərlə, mənzillərlə təmin ediləcək və bu yaşayış kompleksini də nəzərə almaq şərti ilə artıq bu kateqoriyadan olan 1300-dən çox ailə mənzillərlə təmin olunub. Bununla bərabər, biz uzun illərdir Qarabağ qazilərini fərdi avtomobillərlə də təmin edirik”.

Dövlət başçısı bu məsələlərdə də dediyi sözə, verdiyi vədə sadiqdir. Belə ki, müharibə əlillərinin sosial şəraitinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlər sırasında onlara avtomobillərin verilməsi mühüm yer tutur. İndiyədək əlilliyi olan 7200-dən çox şəxs avtomobillə təmin olunub. Sözügedən tədbirdə isə daha 50 müharibə əlili və onlara bərabər tutulan şəxsə avtomobil təqdim edildi. Xatırladaq ki, 2019-cu ildə əlilliyi olan 600, 2020-ci ildə isə 400 şəxsə avtomobil verilib. Cari ildə isə 150 avtomobilin təqdim edlməsi nəzərdə tutulub.

Şəhid ailəsi üzvlərinin və müharibə veteranlarının məşğulluq problemlərinin həlli də daim dövlətin diqqət mərkəzindədir. Bu sahədə görülən tədbirlər çərçivəsində son 6 ayda 47 min 400 nəfər işlə təmin edilib.

Ardı 5-ci səh.

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu gün Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana Türkiyədə 15 iyul dövlət çevrilişi cəhdinin ildönümü ilə bağlı telefonla zəng edib.

Dövlətimizin başçısı ilk növbədə həmin günlərdə həlak olan şəhidlərin xatirəsini dərin ehtiramla yad edib. Prezident İlham Əliyev bildirib ki, Türkiyə dövlətçiliyinə və xalqına qarşı yönəlmiş həmin xəyanətkar dövlət çevrilişi cəhdinin qarşısının alınmasında şəxsən Rəcəb Tayyib Ərdoğanın göstərdiyi qətiyyət və böyük liderlik müstəsna rol oynayıb.

Dövlətimizin başçısı eyni zamanda qeyd edib ki, həmin tarixi sınaq günlərində xalqın Rəcəb Tayyib Ərdoğanın ətrafında sıx birləşməsi Türkiyə xalqının dövlətçilik yolunda göstərdiyi fədakarlığının bariz nümunəsi olub.

Prezident İlham Əliyev Türkiyədə 15 iyul dövlət çevrilişi cəhdi günlərində olduğu kimi, bu gün də Azərbaycanın dost və qardaş Türkiyənin yanında olduğunu xüsusi vurğulayıb, ölkələrimiz və xalqlarımız arasında sıx birliyin bundan sonra da möhkəmlənəcəyinə əminliyini ifadə edib.

Rəcəb Tayyib Ərdoğan telefon zənginə və göstərilən diqqətə görə Azərbaycan Prezidentinə minnətdarlıq edib və öz növbəsində Türkiyə-Azərbaycan birliyi və qardaşlığının hər zaman möhkəmlənəcəyinə əmin olduğunu bildirib.

Söhbət zamanı əməkdaşlığın müxtəlif aspektləri müzakirə edilib.

## Azərbaycan hər zaman Türkiyənin yanındadır



### Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident!

Əziz Qardaşım!

Sizi səmimiyyətlə salamlayıram.

Bu gün qardaş Türkiyə Respublikası 15 iyul dövlət çevrilişi cəhdinin beşinci ildönümünü qeyd edir. Mən dövlət çevrilişi cəhdinin qarşısının alınması yolunda canlarını verən şəhidlərimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edirəm.

Türkiyə dövlətinə qarşı yönəlmiş bu xəyanəti yalnız Sizin böyük fədakarlığınız və qardaş xalqınızın Sizin ətrafınızda sıx birləşməsi sayəsində önləmək mümkün olmuşdur. Milli birlik və həmrəyliyin, qətiyyətli liderliyin və güclü iradənin təntənəsi olan bu möhtəşəm qələbə Türkiyə xalqının yaddaşında əbədi olaraq qalacaqdır.

Şübhəsiz, Türkiyə Respublikası bu çətin sınaqdan daha da güclənərək çıxmışdır. Son illər ərzində Sizin müdrik rəhbərliyiniz altında qardaş ölkənizin siyasi, iqtisadi, hərbi və digər sahələrdə əldə etdiyi nailiyyətlər Türkiyə dövlətçiliyi üçün “Demokratiya və Milli Birlik Günü”nün əhəmiyyətini bir daha vurğulayır.

Azərbaycan xalqı və dövləti bu xəyanətkar dövlət çevrilişi cəhdini ilk dəqiqələrdən ən qəti şəkildə pisləyərək birmənalı mövqeyini ortaya qoymuşdur. Türkiyə bütün məsələlərdə Azərbaycanı dəstəklədiyi kimi, Azərbaycan da hər zaman Türkiyənin yanındadır.

Dostluq və qardaşlığın ən gözəl nümunəsi olan, sülhə, təhlükəsizliyə və əməkdaşlığa töhfə verən Azərbaycan-Türkiyə əlaqələri bu gün özünün ən yüksək zirvəsindədir. Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə səfəriniz zamanı imzaladığımız Şuşa Bəyannaməsi müttəfiqlik münasibətlərimizi keyfiyyətcə yeni müstəviyə qaldıraraq, əməkdaşlığımızın gələcək istiqamətlərini müəyyən edir.

Əminəm ki, Azərbaycan-Türkiyə birliyi və qardaşlığının “Bir millət iki dövlət” şüarına uyğun olaraq daha da möhkəmləndirilməsi və inkişafı naminə qarşıya qoyduğumuz hədəflərə çatmaq üçün birgə səylərimizi davam etdirəcəyik.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2021-ci il*

## “Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Belarus Respublikasının Müdafiə Nazirliyi arasında ikitərəfli əməkdaşlığın həyata keçirilməsi zamanı məxfi informasiyanın qarşılıqlı ötürülməsinə dair” Müqavilənin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Belarus Respublikasının Müdafiə Nazirliyi arasında ikitərəfli əməkdaşlığın həyata keçirilməsi zamanı məxfi informasiyanın qarşılıqlı ötürülməsinə dair” 2021-ci il mayın 18-də Bakı şəhərində imzalanmış Müqavilə təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2021-ci il*

## Prezident İlham Əliyevin elmə və biliyə əsaslanan inkişaf strategiyası, onun kadr təminatı

Azərbaycan uğurla inkişaf edir və bu proses həm iqtisadi, sosial və humanitar sahələri əhatə edir, həm də dövlət idarəçiliyində tətbiq olunan tam yeni dövlət idarəçilik texnologiyalarına əsaslanır. Dövlət idarəçiliyində innovativ texnologiyaların tətbiqinin nəticəsidir ki, bu gün beynəlxalq təşkilatların rəsmi hesabatlarına əsasən müstəqilliyinin bərpasından cəmi 30 il keçmiş Azərbaycan Respublikası dünyada inkişafın davamlı və sosialyönümli olması və inklüziv cəmiyyətin qurulması naminə maliyyə resurslarını və insan potensialını ən səmərəli istifadə edən ölkədir.

Bu nailiyyətlərin əldə edilməsinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Prezident İlham Əliyev isə dövlət idarəçilik texnologiyalarını tam yeni səviyyəyə qaldırmış və bugünkü uğurların qazanılmasını təmin etmişdir. Bu texnologiyaların əhəmiyyətli hissəsini institusional islahatlar təşkil edir. Birinci vitse-prezident institutunun yaradılması, bu vəzifədə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın milli və beynəlxalq səviyyədə olduqca səmərəli fəaliyyəti müasir dünyanın əsas prioriteti olan inklüziv cəmiyyətin qurulmasını, bunun üçün yeni nəsil idarəçilərin formalaşmasını təmin etmişdir.

Bax: səh. 4

## Şuşadan dünyaya barışıq və sülh mesajı verildi

### İlham Əliyev fərqli inanclara sahib olan azərbaycanlıları da Qarabağdakı müqəddəs dini ocaqlarda dua etmək xoşbəxtliyinə qovuşdurdu

2250 məscid, 16 kilsə, 7 sinaqoq...

Bütün bu dini ocaqlar dünya xəritəsinə baxanda kiçik nöqtə kimi görünən Azərbaycanda cəmləşib...



Tolerantlıq və dözümlülük ənənələri zəngin olan Azərbaycan bir çox millətlərin və dini konfessiyaların dinc yaşadığı qədim məkandır. Bu da Tanrının lütfü olmalıdır ki, bütün dinlərə aid qədim ibadət yerlərinin təməlləri məhz bu müqəddəs yurdda qoyulub. Bunu ölkəmizdə mövcud olan və müxtəlif inanclara məxsus tarixi, dini abidələr də sübut edir. Hər zaman bu unikal məkanda məscidlərdən ucalan azan sədası ilə yanaşı, kilsə zənglərinin səsi həmahənglik təşkil edib. Müxtəlif sivilizasiyaların qovuşma ünvanı olan ölkəmizdə əsrlərdir ki, ayrı-ayrı millətlərin nümayəndələri sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma şəraitində yaşayırlar. Bayramlarını da, toylarını da, yaslarını da birgə qeyd edib, bərabər sevinib, bərabər kədərləniblər...

Elə doğma vətənləri Azərbaycan uğrunda da birgə mübarizə aparıblar...

1992-ci ildə Şuşanın müdafiəsi uğrunda qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalan yəhudiəsilli Albert Aqarunovun məzarının başı üzərində əli Quranlı bir molla ilə əli Tövratlı bir ravvinin eyni anda onun ruhuna dualar etmələri isə hələ də yaddaşlardan silinməyib və tolerantlığın ən unikal təsviri kimi hafizələrə həkk olunub...

44 günlük Vətən müharibəsində də millətindən, dinindən, dilindən asılı olmayaraq bütün azərbaycanlıların birləşərək Qarabağın müdafiəsinə qalxması, bütöv Vətən uğrunda gözlərini belə qırpmadan canlarını qurban verməyə hazır olması bir daha yurdumuzda var olan birgəliyi təntənəli şəkildə dünyanın gözü önünə sərdi...

#### Bəşəri dəyərlərə Azərbaycan töhfəsi

Azərbaycanda dövlət-din münasibətlərinin banisi Ümummilli Lider Heydər Əliyevdir. Ümummilli Liderin ölkəmizdə həyata keçirdiyi uğurlu siyasətin əsasında dövlət-din münasibətləri mühüm yer tutub və daim inkişaf etdirilib.

Ardı 5-ci səh.

## Azərbaycan 137 dövlətin vahid səsini ucaldıb

### İlham Əliyev Qoşulmama Hərəkatının sədri kimi sülh missiyasını uğurla icra etməkdədir

İyulun 13-də Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin onlayn formatda aralıq konfransı keçirildi. 2019-cu ildən hərəkata sədrlik edən Prezident İlham Əliyev konfransda çıxış edərək görülən işlər, qazanılan uğurlar və gələcək planlar barədə geniş məlumat verdi. Prezident həmçinin İkinci Qarabağ müharibəsində məğlub olaraq kapitulyasiya sənədinə imza atan Ermənistanın son vaxtlar törətdiyi təxribatlar və işğaldan azad edilmiş ərazilərimizdə basdırılan minaların xəritələrinin verilməməsi məsələsini üzv dövlətlərin diqqətinə çatdırdı.

#### Azərbaycan qısa müddətdə Qoşulmama Hərəkatında olduqca böyük nüfuz və etimad qazanıb

120 üzv və 17 müşahidəçi dövləti, eyni zamanda 10 müşahidəçi beynəlxalq təşkilatı birləşdirən hərəkat müasir beynəlxalq münasibətlərin tənzimlənməsində iştirak edən mühüm platformadır. Dünyadakı mövcud dövlətlərin üçdəikisini əhatə edən bir təsisatın mühüm toplantılarında müzakirə edilən məsələlər BMT Baş Assambleyasının gündəliyinin formalaşmasına böyük təsir göstərir.

Ardı 5-ci səh.

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513, № 11, maddə 1974, № 12 (I kitab), maddə 2192; 2018, № 2, maddələr 158, 159, № 3, maddə 392, № 5, maddələr 864, 880, № 6, maddə 1191, № 7 (I kitab), maddələr 1383, 1428; 2019, № 1, maddə 8; 2020, № 7, maddələr 828, 851, 856, № 11, maddə 1322, № 12 (I kitab), maddələr 1425, 1427; 2021, № 2, maddə 114) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.2-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Şuranın fəaliyyətinin təşkilini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yaradılan Katiblik həyata keçirir.";

1.2. 22.7-ci maddə üzrə:

1.2.1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Dövlət qulluqçusuna daimi dövlət qulluğuna qəbul edildiyi vaxtdan başlayaraq qulluq stajına görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada və məbləğdə aylıq əlavə haqq ödənilir.";

1.2.2. ikinci cümlə ləğv edilsin;

1.3. aşağıdakı məzmunda 22.7-1-ci və 22.7-2-ci maddələr əlavə edilsin:

"22.7-1. Dövlət qulluqçusunun bu Qanunun 2.3-cü maddəsində nəzərdə tutulan dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illəri onun dövlət qulluğu stajına və dövlət qulluğu stajı onun bu Qanunun 2.3-cü maddəsində nəzərdə tutulan dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinə daxil edilir.

22.7-2. Qulluğun (xidmətin) xüsusiyyətləri nəzərə alınaraq, dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinin dövlət qulluğu stajına və dövlət qulluğu stajının dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinə daxil edilməsi qaydasını və şərtlərini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.";

1.4. 28-ci maddə üzrə:

1.4.1. 28.3-cü maddənin birinci cümləsində "sertifikat" sözü "Dövlət qulluğu sertifikatı" (bundan sonra - sertifikat)" sözləri ilə əvəz edilsin;

1.4.2. 28.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"28.5. Dövlət qulluğuna qəbul üçün test imtahanından keçdiyini təsdiq edən sertifikatı olan şəxs həmin sertifikatın qüvvədə olma müddətinin hər ili ərzində beş müsahibədə iştirak etmək üçün ödənişsiz müraciət edə bilər. Beşdən artıq müsahibədə iştirak ödənişlidir və müsahibədə iştirak etmək üçün ödənişin məbləğini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

Müsahibədə iştirak etmək istəyən şəxs müsahibənin keçirilməsi elan edildiyi gündən 30 gün müddətində dövlət qulluğu vəzifəsinin aid olduğu dövlət orqanına müraciət edir. Müraciətə əlavə edilməli sənədlərin siyahısı və sənədlərin qəbulu qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.";

1.4.3. aşağıdakı məzmunda 28.7-1-ci və 28.8-1-ci maddələr əlavə edilsin:

"28.7-1. Dövlət orqanının rəhbəri tərəfindən bu Qanunun 28.7-ci maddəsinə uyğun olaraq təqdim olunmuş namizədlər sırasından seçim edilərkən müsabiqədə daha yüksək nəticə əldə etmiş namizədlərə, müsabiqə nəticələri bərabər olduqda ali təhsil pilləsinin daha yüksək səviyyəsini bitirənlərə, təhsil səviyyəsi eyni olduqda isə təhsil müəssisəsini fərqlənmə ilə bitirənlərə və xarici dil bilənlərə üstünlük verilir.";

"28.8-1. Bu Qanunun 28.7-ci maddəsində nəzərdə tutulmuş staj və sınaq müddəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) inzibati vəzifələrin beşinci - yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələr üzrə müsahibə əsasında ilk dəfə dövlət qulluğuna qəbul edilən şəxslərə də şamil edilir.";

1.4.4. 28.11-ci maddənin birinci hissəsinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bu müddət ərzində həmin dövlət orqanında analoji vakant vəzifə olduqda, namizədlərin razılığı ilə onlar həmin vəzifələrə təyin edilirlər, yaxud digər dövlət orqanında analoji vakant vəzifə olduqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həmin vəzifəyə təyin edilmə məsələlərinə baxılması üçün namizədlər bu dövlət orqanının rəhbərinə təqdim olunurlar.";

1.4.5. 28.12-ci maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü hissələr əlavə edilsin:

"1-3-cü kateqoriya dövlət orqanlarında (müvafiq icra hakimiyyəti orqanı, habelə Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında təyin olunan ticarət nümayəndələri istisna olmaqla) inzibati vəzifələrin birinci - üçüncü təsnifatlarına uyğun olan vəzifələrə, habelə 2-ci kateqoriya dövlət orqanlarına aid müvafiq icra hakimiyyəti orqanında inzibati vəzifələrin dördüncü təsnifatına uyğun olan vəzifələrə (bölmə rəhbərləri və həmin dövlət orqanı rəhbərinin müşavirləri, köməkçiləri) qəbul bu Qanunun 29.3-cü maddəsinin ikinci hissəsinə uyğun olaraq daxili müsahibə əsasında həyata keçirilir.

Dövlət qulluğu vəzifəsinin tutulması üçün nəzərdə tutulan təhsil tələbi (istiqaməti) üzrə elmlər doktoru elmi dərəcəsi olan şəxslər, dövlət orqanlarında (qurumlarında) siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən vəzifələrdə azı 10 il iş stajı olan şəxslər inzibati vəzifə üzrə dövlət qulluğuna qəbul olunarkən müsabiqənin yalnız müsahibə mərhələsində iştirak edirlər.";

1.5. 28-1-ci maddə üzrə:

1.5.1. 28-1.1-ci maddəyə "son ilində" sözlərindən sonra ", lakin həmin sertifikatın qüvvədə olma müddətinin bitmə tarixindən gec olmayaraq" sözləri əlavə edilsin;

1.5.2. 28-1.2-ci maddədə "ömürlük" sözü "müddətsiz" sözü ilə əvəz edilsin;

1.5.3. 28-1.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"28-1.3. Dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə keçirilən test imtahanının məzmunu Şuranın təklifləri əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.";

1.6. 29.2-ci maddə üzrə:

1.6.1. birinci hissənin birinci və ikinci cümlələrində "Birinci - beşinci" sözləri "1-5-ci" sözləri ilə əvəz edilsin;

1.6.2. ikinci hissəyə "Dövlət qulluqçusu" sözlərindən sonra "(iki il müddətində bu Qanunun 28.12-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq dövlət qulluğu vəzifələrini tutan dövlət qulluqçuları istisna olmaqla)" sözləri əlavə edilsin;

1.6.3. üçüncü hissəyə "Dövlət qulluqçusu" sözlərindən sonra "(bu Qanunun 28.12-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq dövlət qulluğu vəzifələrini tutan dövlət qulluqçuları istisna olmaqla)" sözləri əlavə edilsin;

1.7. 29.3-cü maddə üzrə:

1.7.1. birinci hissənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"1-5-ci kateqoriya dövlət orqanlarında (müvafiq icra hakimiyyəti orqanı istisna olmaqla) inzibati vəzifələrin dördüncü-yeddinci təsnifatlarına (2-ci kateqoriya dövlət orqanlarına aid müvafiq icra hakimiyyəti orqanında inzibati vəzifələrin dördüncü təsnifatına uyğun olan vəzifələr (bölmə rəhbərləri və həmin dövlət orqanı rəhbərinin müşavirləri, köməkçiləri) istisna olmaqla) uyğun olan vəzifələrin həmin dövlət orqanında və ya digər dövlət orqanında inzibati vəzifələrdə qulluq keçən və inzibati vəzifələrin təsnifatına uyğun ixtisas dərəcəsi olan dövlət qulluqçuları, habelə azı 5 il qulluq stajı olan və dövlət orqanında inzibati vəzifələrdə çalışmış, eləcə də bu Qanunun 2.3-cü maddəsində nəzərdə tutulan dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) keçən və xüsusi (hərbi, diplomatik) rütbəsi olan, habelə həmin orqanlarda azı 5 il qulluq (xidmət) stajı olan və xüsusi (hərbi, diplomatik) rütbə nəzərdə tutulan vəzifələrdə çalışmış şəxslər tərəfindən tutulması ümumi müsahibə yolu ilə həyata keçirilir.";

1.7.2. birinci hissəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Dövlət qulluğu vəzifəsinin tutulması üçün nəzərdə tutulan təhsil tələbi (istiqaməti) üzrə elmlər doktoru elmi dərəcəsi olan şəxslər, dövlət orqanlarında (qurumlarında) siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən vəzifələrdə azı 10 il iş stajı olan şəxslər inzibati vəzifələrin tutulması üçün keçirilən ümumi müsahibədə iştirak edə bilərlər.";

1.7.3. ikinci hissənin birinci cümləsində "Birinci - beşinci" sözləri "1-5-ci" sözləri ilə, "birinci - yeddinci təsnifatlarına uyğun olan vəzifələrin" sözləri "dördüncü - yeddinci (2-ci kateqoriya dövlət orqanlarına aid müvafiq icra hakimiyyəti orqanında inzibati vəzifələrin dördüncü təsnifatına uyğun olan vəzifələr (bölmə rəhbərləri və həmin dövlət orqanı rəhbərinin müşavirləri, köməkçiləri) istisna olmaqla) təsnifatlarına uyğun olan vəzifələrin" sözləri ilə, "müsahibə (daxili müsahibə)" sözləri "daxili müsahibə" sözləri ilə əvəz edilsin və həmin cümləyə "dövlət qulluqçularının" sözlərindən sonra ", habelə bu Qanunun 28.12-ci maddəsinin ikinci hissəsində müəyyən edilmiş vəzifələrə iddia edən şəxslərin" sözləri əlavə edilsin;

1.7.4. üçüncü hissədə "müsahibə (ümumi müsahibə)" sözləri "ümumi müsahibə" sözləri ilə əvəz edilsin və həmin hissəyə "müsabiqə" sözündən sonra "(bu Qanunun 28.12-ci maddəsinin ikinci hissəsində müəyyən edilmiş vəzifələr istisna olmaqla)" sözləri əlavə edilsin;

1.7.5. aşağıdakı məzmunda beşinci və altıncı hissələr əlavə edilsin:

"1-5-ci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin birinci - yeddinci təsnifatlarına uyğun olan vəzifələrin tutulması məqsədilə keçirilən müsahibədən müvəffəqiyyətlə keçmiş, lakin vakant vəzifəyə təyin edilməmiş namizədlər iki il müddətində həmin dövlət orqanında ehtiyat kadr kimi saxlanılır. Həmin namizədlərin vakant inzibati vəzifələrə təyin olunması və ehtiyat kadrlar siyahısından çıxarılması ilə bağlı məsələlər bu Qanunun 28.11-ci maddəsinə uyğun olaraq tənzimlənir.

Dövlət orqanının ləğvi, dövlət qulluqçularının sayının və ya ştatların ixtisarı ilə əlaqədar ehtiyat kadrlar siyahısına daxil edilən şəxs bu Qanunun 29.2-ci maddəsinin birinci hissəsinə uyğun olaraq keçirilən ümumi müsahibədə və ehtiyat kadr kimi saxlanıldığı dövlət orqanında bu Qanunun 29.3-cü maddəsinin ikinci hissəsinə uyğun olaraq keçirilən daxili müsahibədə iştirak edə bilər.";

1.8. 29.4-cü maddənin ikinci hissəsinə "olunur" sözündən sonra ", dövlət orqanının və müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun rəsmi internet saytlarında yerləşdirilir" sözləri əlavə edilsin;

1.9. 29.5-ci maddə üzrə:

1.9.1. ikinci hissədə "bir il" sözləri "altı ay" sözləri ilə əvəz edilsin;

1.9.2. üçüncü hissəyə "birinci hissəsi" sözlərindən sonra "bu Qanunun 28.12-ci maddəsinin ikinci hissəsində müəyyən edilmiş vəzifələrin tutulmasına, habelə" sözləri əlavə edilsin;

1.10. 29.7-ci maddəyə "komissiya" sözündən sonra "bu Qanunun 28.12-ci maddəsinin ikinci hissəsində müəyyən edilmiş vəzifələrin tutulması ilə bağlı müsahibə zamanı yalnız həmin dövlət orqanının nümayəndələri daxil edilməklə, digər hallarda isə" sözləri əlavə edilsin;

1.11. 29.11-ci maddəyə "inzibati vəzifə" sözlərindən sonra "(bu Qanunun 28.12-ci maddəsinin ikinci hissəsində müəyyən edilmiş vəzifələr istisna olmaqla)" sözləri əlavə edilsin;

1.12. 29-1-ci maddəyə "yaratdığı quruma" sözlərindən sonra ", Şuraya" sözü əlavə edilsin.

**Maddə 2.** Keçid müddəaları

2.1. 2021-ci il iyulun 1-dək "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qulluğuna qəbul olunmuş, on il və daha çox qulluq stajı olan dövlət qulluqçuları, habelə əvvəllər azı on il dövlət qulluğunda çalışmış və yenidən dövlət qulluğuna qəbul olunan şəxslər müddətsiz "Dövlət qulluğu sertifikatı" almış dövlət qulluqçularına bərabər tutulurlar.

2.2. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 28-1-ci maddəsi "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 31 may tarixli 267-VQD nömrəli Qanunu qüvvəyə mindiyi günədək "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qulluğuna qəbul olunmuş dövlət qulluqçularına (bu Qanunun 2.1-ci maddəsi nəzərə alınmaqla) onlar daha yüksək inzibati vəzifənin tutulması üçün müraciət etdiyi halda tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2021-ci il*

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 340-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 29 dekabr tarixli 435 nömrəli, "Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi Qaydalarının təsdiq edilməsi barədə" 2002-ci il 28 yanvar tarixli 665 nömrəli, "Azərbaycan Respublikasının dövlət orqanlarında dövlət qulluğunun rəhbər vəzifələrinin tutulması üçün ehtiyat kadrların formalaşdırılması Qaydaları"nın təsdiq edilməsi barədə" 2006-cı il 27 iyul tarixli 432 nömrəli, "Dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 21 iyun tarixli 1480 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 340-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 5.2-ci maddəsinin ikinci cümləsində, 22.7-ci maddəsinin birinci cümləsində, 22.7-2-ci maddəsində, 28.5-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində və ikinci hissəsinin ikinci cümləsində, 28.8-1-ci maddəsində, 28.11-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində, 28.12-ci maddəsinin üçüncü hissəsində, 28-1.3-cü maddəsində, 29.3-cü maddəsinin birinci hissəsinin üçüncü cümləsində, 29.4-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 28.12-ci maddəsinin ikinci hissəsində (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Bakı Şəhər İcra Hakimiyyəti həyata keçirir;

1.3. həmin Qanunun 29.3-cü maddəsinin birinci hissəsinin birinci cümləsində (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları, Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlar, yerli icra hakimiyyəti başçılarının yanında avtomobil nəqliyyatı ilə sərnişindaşıma idarələri, yerli icra hakimiyyəti başçılarının inzibati ərazi dairələri üzrə nümayəndəlikləri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəlikləri həyata keçirirlər;

1.4. həmin Qanunun 28.12-ci maddəsinin ikinci hissəsində (ikinci halda) və 29.3-cü maddəsinin birinci və ikinci hissələrinin birinci cümlələrində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları, onlara bərabər tutulan orqanlar (Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası) həyata keçirirlər;

1.5. həmin Qanunun 5.2-ci maddəsinin ikinci cümləsində və 22.7-ci maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.6. həmin Qanunun 22.7-2-ci maddəsində, 28.5-ci maddəsinin ikinci hissəsinin ikinci cümləsində, 28.12-ci maddəsinin üçüncü hissəsində, 29.3-cü maddəsinin birinci hissəsinin üçüncü cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.7. həmin Qanunun 28.5-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası nəzərdə tutulur;

1.8. həmin Qanunun 28.8-1-ci maddəsində "orqan (qurum)" dedikdə yerli icra hakimiyyəti orqanları, Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlar, yerli icra hakimiyyəti başçılarının yanında avtomobil nəqliyyatı ilə sərnişindaşıma idarələri, yerli icra hakimiyyəti başçılarının inzibati ərazi dairələri üzrə nümayəndəlikləri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəlikləri nəzərdə tutulur;

1.9. həmin Qanunun 28-1.3-cü maddəsində və 28.11-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi nəzərdə tutulur;

1.10. həmin Qanunun 29.4-cü maddəsinin ikinci hissəsində "qurum" dedikdə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 22.7-2-ci maddəsinə uyğun olaraq, dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinin dövlət qulluğu stajına və dövlət qulluğu stajının dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinə daxil edilməsi qaydasını və şərtlərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.2. həmin Qanunun 28.12-ci maddəsinin üçüncü hissəsinə və 29.3-cü maddəsinin birinci hissəsinin üçüncü cümləsinə uyğun olaraq, inzibati vəzifə üzrə dövlət qulluğuna qəbul olunarkən şəxslərə müsabiqənin yalnız müsahibə mərhələsində və ya ümumi müsahibədə iştirak etmək hüququ verən dövlət orqanlarında (qurumlarında) vəzifələrin siyahısını üç ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.3. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 340-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 340-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 28-1.3-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının təklifləri əsasında dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə keçirilən test imtahanının məzmununu üç ay müddətində müəyyən etsin.

5. Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 28.5-ci maddəsinin birinci hissəsinin ikinci cümləsinə uyğun olaraq müsahibədə iştirak etmək üçün ödənişin məbləğini üç ay müddətində müəyyən etsin.

6. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 28; 2002, № 8, maddə 495; 2005, № 12, maddə 1111; 2007, № 12, maddə 1241; 2008, № 5, maddə 363; 2010, № 2, maddə 80; 2017, № 8, maddə 1518; 2018, № 2, maddə 170, № 11, maddə 2249; 2019, № 1, maddə 75, № 8, maddə 1403; 2020, № 1, maddə 7, № 7, maddə 871, № 11, maddə 1348, № 12 (I kitab), maddə 1480) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 3.1-ci və 3.2-1-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"3.1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 5.2-ci maddəsinin ikinci cümləsində, 12.2-ci maddəsinin ikinci cümləsində, 15-1.3-cü, 15-2.3-cü maddələrində, 17.4-3-cü maddəsinin ikinci cümləsində, 17.5-ci maddəsində, 22.7-ci maddəsinin birinci cümləsində, 22.7-2-ci, 23.4-cü, 25.4-cü maddələrində, 27.3-cü maddəsinin ikinci cümləsində, 28.2-ci maddəsinin birinci hissəsində, 28.3-cü maddəsinin birinci cümləsində, 28.4-cü maddəsinin ikinci hissəsində, 28.5-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində və ikinci hissəsinin ikinci cümləsində, 28.6-cı maddəsinin ikinci hissəsinin ikinci cümləsində və üçüncü hissəsində, 28.7-ci maddəsinin altıncı və səkkizinci cümlələrində, 28.8-1-ci maddəsində, 28.11-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində, 28.12-ci maddəsinin üçüncü hissəsində, 28.13-cü maddəsinin birinci cümləsində, 28-1.1-ci, 28-1.3-cü maddələrində, 29.2-ci maddəsinin birinci hissəsinin üçüncü cümləsində, 29.3-cü maddəsinin birinci hissəsinin üçüncü cümləsində, 29.4-cü maddəsinin birinci və ikinci hissələrində, 29.6-cı, 29.7-ci, 29.12-ci (ikinci halda) və 30-1.13-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

"3.2-1. həmin Qanunun 22.7-2-ci maddəsində, 28.5-ci maddəsinin ikinci hissəsinin ikinci cümləsində, 28.12-ci maddəsinin üçüncü hissəsində, 29.3-cü maddəsinin birinci hissəsinin üçüncü cümləsində və 30-1.13-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

6.2. 3.1-1-ci bəndə "Qanunun" sözündən sonra "5.2-ci maddəsinin ikinci cümləsində," sözləri və "17.4-3-cü maddəsinin ikinci cümləsində" sözlərindən sonra "və 22.7-ci maddəsinin birinci cümləsində" sözləri əlavə edilsin;

6.3. 3.2-ci bənddən ", 28.5-ci maddəsinin üçüncü cümləsində" sözləri çıxarılsın;

6.4. 3.21-ci bənddə "29.4-cü maddəsinin birinci hissəsində və" sözləri "29.4-cü maddəsinin birinci və ikinci hissələrində," sözləri ilə əvəz edilsin;

6.5. aşağıdakı məzmunda 3.21-1-ci və 3.22-1 - 3.22-4-cü bəndlər əlavə edilsin:

"3.21-1. həmin Qanunun 28-1.3-cü maddəsində və 28.11-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi nəzərdə tutulur;";

"3.22-1. həmin Qanunun 28.5-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası nəzərdə tutulur;

3.22-2. həmin Qanunun 28.8-1-ci maddəsində "orqan (qurum)" dedikdə yerli icra hakimiyyəti orqanları, Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlar, yerli icra hakimiyyəti başçılarının yanında avtomobil nəqliyyatı ilə sərnişindaşıma idarələri, yerli icra hakimiyyəti başçılarının inzibati ərazi dairələri üzrə nümayəndəlikləri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəlikləri nəzərdə tutulur;

3.22-3. həmin Qanunun 28.12-ci maddəsinin ikinci hissəsində (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Bakı Şəhər İcra Hakimiyyəti həyata keçirir;

3.22-4. həmin Qanunun 28.12-ci maddəsinin ikinci hissəsində (ikinci halda) və 29.3-cü maddəsinin birinci və ikinci hissələrinin birinci cümləsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları, onlara bərabər tutulan orqanlar (Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası) həyata keçirirlər;";

6.6. 3.23-cü bəndə "28.12-ci maddəsinin" sözlərindən sonra "birinci hissəsinin" sözləri və "birinci cümlələrində" sözlərindən sonra "(birinci halda)" sözləri əlavə edilsin.

7. "Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi Qaydalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 yanvar tarixli 665 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 1, maddə 48; 2003, № 8, maddə 441; 2004, № 8, maddə 613; 2005, № 3, maddə 172; 2009, № 6, maddə 419; 2021, № 3, maddə 223) aşağıdakı dəyişikliklər edilsin:

7.1. adında və 1-ci hissədə "əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi Qaydaları" sözləri "aylıq əlavə haqqın məbləğinin müəyyənləşdirilməsi və ödənilməsi Qaydası" sözləri ilə əvəz edilsin;

7.2. həmin Fərmanla təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi Qaydaları" üzrə:

7.2.1.adında "əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi Qaydaları" sözləri "aylıq əlavə haqqın məbləğinin müəyyənləşdirilməsi və ödənilməsi Qaydası" sözləri ilə əvəz edilsin;

7.2.2.1-ci hissədə "Qaydalar" sözü "Qayda" sözü ilə, "Qanununa" sözü "Qanununun 22.7-ci maddəsinə" sözləri ilə əvəz olunsun və həmin hissəyə "əlavə haqqın" sözlərindən əvvəl "aylıq" sözü əlavə edilsin;

7.2.3.2-ci və 4-cü hissələrdə "xidmətin ikinci ilindən" sözləri "daimi dövlət qulluğuna qəbul edildiyi vaxtdan" sözləri ilə əvəz edilsin;

7.2.4.7-ci hissənin ikinci bəndində "Bu bənddə" sözləri "Bu hissədə və 7-1-ci hissədə" sözləri ilə əvəz edilsin;

7.2.5.aşağıdakı məzmunda 7-1-ci hissə əlavə edilsin:

"7-1. Dövlət qulluqçusunun "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 2.3-cü maddəsində nəzərdə tutulan dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illəri həmin Qanunun 22.7-2-ci maddəsinə uyğun olaraq, qulluğun (xidmətin) xüsusiyyətləri nəzərə alınmaqla onun dövlət qulluğu stajına və dövlət qulluğu stajı onun həmin Qanunun 2.3-cü maddəsində nəzərdə tutulan dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinə daxil edilir.";

7.2.6.11-ci hissə aşağıdakı redaksiyada verilsin:

"11. Bu Qaydanın 7-ci və 9-cu hissələrinin tətbiqi ilə əlaqədar yaranmış mübahisələri Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası həll edir.".

8. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 iyul tarixli 432 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 596; 2012, № 12, maddə 1243) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanlarında dövlət qulluğunun rəhbər vəzifələrinin tutulması üçün ehtiyat kadrların formalaşdırılması Qaydaları"nın 1-ci hissəsində "birinci - beşinci" sözləri "1-5-ci" sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 iyun tarixli 1480 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1096, № 12 (I kitab), maddə 2337; 2019, № 7, maddə 1234) ilə təsdiq edilmiş "Dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

9.1. 1.1-ci bənddə "birinci - beşinci" sözləri "1-5-ci" sözləri ilə əvəz edilsin və həmin bənddən "(bundan sonra - vakant vəzifə)" sözləri çıxarılsın;

9.2. 1.4.1-ci yarımbənddə "sertifikatı" sözü "dövlət qulluğu sertifikatı" sözləri ilə əvəz edilsin;

9.3. 1.4.2-ci yarımbəndə "dövlət qulluqçularının" sözlərindən sonra ", habelə Qanunun 28.12-ci maddəsinin ikinci hissəsində müəyyən edilmiş vəzifələrə iddia edən şəxslərin" sözləri əlavə edilsin;

9.4. 1.4.3-cü yarımbəndə "çalışmış" sözündən sonra ", eləcə də Qanunun 2.3-cü maddəsində nəzərdə tutulan dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) keçən və xüsusi (hərbi, diplomatik) rütbəsi olan, habelə həmin orqanlarda azı 5 il qulluq (xidmət) stajı olan və xüsusi (hərbi, diplomatik) rütbə nəzərdə tutulan vəzifələrdə çalışmış" sözləri əlavə edilsin;

9.5. 1.4.3-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 1.4.4-cü yarımbənd əlavə edilsin:

"1.4.4. vakant vəzifə - tutulması üçün müsahibə, ümumi müsahibə və ya daxili müsahibə keçirilməsi nəzərdə tutulan, Qanunun 28-ci və 29-cu maddələrinə uyğun olaraq müəyyən edilən müvafiq dövlət qulluğu vəzifələri.";

9.6. 2.2-ci bəndə "yolu ilə" sözlərindən sonra "(Qanunun 28.12-ci maddəsinin ikinci hissəsində müəyyən edilmiş vəzifələr istisna olmaqla)" sözləri əlavə edilsin;

9.7. aşağıdakı məzmunda 3.1-1-ci bənd əlavə edilsin:

"3.1-1. Qanunun 28.12-ci maddəsinin ikinci hissəsində müəyyən edilmiş vəzifələrin tutulması ilə bağlı müsahibə zamanı müsahibə komissiyasının tərkibinə yalnız həmin dövlət orqanının nümayəndələri daxil edilir.";

9.8. 5.10-cu bəndin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bu müddət ərzində həmin dövlət orqanında analoji vakant vəzifə (vəzifənin tutulması şərtləri uyğun olan) olduqda, namizədlərin razılığı ilə onlar həmin vəzifələrə təyin edilirlər, yaxud digər dövlət orqanında analoji vakant vəzifə olduqda, həmin vəzifəyə təyin edilmə məsələlərinə baxılması üçün namizədlər bu dövlət orqanının rəhbərinə Mərkəz tərəfindən təqdim olunurlar.";

9.9. 6.1-ci bəndə "inzibati qaydada" sözlərindən sonra ", Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasına" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2021-ci il*

## “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 4; 2001, № 3, maddə 141; 2007, № 12, maddə 1212; 2008, № 11, maddə 960; 2014, № 4, maddə 331; 2015, № 4, maddə 352; 2016, № 3, maddə 419; 2018, № 4, maddə 651; 2019, № 1, maddələr 36, 47, № 12, maddə 1904; 2020, № 3, maddə 227, № 5, maddə 521, № 12 (I kitab), maddə 1426) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 16-4.4-cü maddədən “, habelə müştərək maliyyələşmə məbləğinə aid hissələrdə 15-28.3-cü və 15-28.4-cü maddələri” sözləri çıxarılsın;

1.2. aşağıdakı məzmunda 16-4.4-1-ci maddə əlavə edilsin:

“16-4.4-1. Bu Qanunun müştərək maliyyələşmə məbləğinə aid hissələrində 15-28.3-cü və 15-28.4-cü maddələri 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.”;

1.3. 16-4.6-cı maddəyə “16-4.4-cü” sözlərindən sonra “, 16-4.4-1-ci” sözləri əlavə edilsin.

**Maddə 2.** Bu Qanun 2021-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 may 2021-ci il*

## “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 92, № 12, maddə 1941; 2020, № 5, maddə 562, № 12, maddə 1502) 1.2.1-ci yarımbəndində “16-3-cü maddəsinin ikinci cümləsinə” sözləri “15-9.2-ci maddəsinin və 16-3-cü maddəsinin ikinci cümlələrinə” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin “Energetika haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1999-cu il 1 fevral tarixli 85 nömrəli, “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə” 2000-ci il 30 avqust tarixli 392 nömrəli, “Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında” Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 177-VQ nömrəli Qanununun tətbiqi barədə” 2016-cı il 20 aprel tarixli 867 nömrəli, “Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2018-ci il 16 iyul tarixli 204 nömrəli və “Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2019-cu il 9 aprel tarixli 613 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Yerin təki haqqında”, “İstehsalat və məişət tullantıları haqqında”, “Qaz təchizatı haqqında”, “Energetika haqqında” və “Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1683-VQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. “Energetika haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 1 fevral tarixli 85 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 69; 2003, № 10, maddə 582; 2007, № 6, maddə 601, № 8, maddə 769; 2010, № 10, maddə 857; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 10, maddə 1216; 2016, № 8, maddə 1384; 2018, № 3, maddə 408) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. ikinci abzasa “cümlələrində” sözündən sonra “, 9-cu maddəsinin 3-cü hissəsinin onuncu abzasında və 5-ci hissəsində, 10-cu maddəsinin 1-ci hissəsində” sözləri əlavə edilsin;

1.2. altıncı abzasda “1-ci, 3-cü” sözləri “3-cü” sözləri ilə əvəz edilsin və həmin abzasdan “, 23-cü maddəsinin 1-ci bəndində” sözləri çıxarılsın;

1.3. 9-cu abzasdan “9-cu maddəsinin 4-cü bəndində,” sözləri çıxarılsın;

1.4. 10-cu abzasdan “9-cu maddəsinin 3-cü bəndində,” sözləri çıxarılsın;

1.5. on birinci abzas on dördüncü abzas hesab edilsin və aşağıdakı məzmunda on birinci - on üçüncü abzaslar əlavə edilsin:

“həmin Qanunun 9-cu maddəsinin 3-cü hissəsinin onuncu abzasında “orqan (qurum)” dedikdə, əsasnaməsinə və nizamnaməsinə müvafiq olaraq, Azərbaycan Respublikasının Energetika Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ətraf mühitə təsirə münasibətdə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin iştirakı ilə) nəzərdə tutulur;

həmin Qanunun 9-cu maddəsinin 5-ci hissəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;

həmin Qanunun 10-cu maddəsinin 1-ci hissəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Energetika Nazirliyi nəzərdə tutulur;”.

2. “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 392 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 615; 2001, № 10, maddə 640, № 12, maddələr 754, 755; 2002, № 1, maddə 52; 2003, № 10, maddələr 546, 585; 2007, № 2, maddə 87; 2008, № 8, maddə 719; 2009, № 10, maddə 785; 2014, № 5, maddə 477; 2016, № 2 (II kitab), maddə 251, № 8, maddə 1384; 2018, № 11, maddə 2279) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. doqquzuncu abzasa “Azərbaycan Respublikasının” sözlərindən əvvəl “əsasnaməsinə və nizamnaməsinə müvafiq olaraq, Azərbaycan Respublikasının Energetika Nazirliyi və” sözləri əlavə edilsin;

2.2. iyirmi ikinci abzas ləğv edilsin.

3. “Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında” Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 177-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 867 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 672; 2020, № 1, maddə 10) 2.2-ci və 2.3-cü bəndlərində “3.5-ci” sözləri “3.6-cı” sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 iyul tarixli 204 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1490; 2020, № 7, maddə 896) ilə təsdiq edilmiş “Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.3-cü bəndə “təqdim etdiyi” sözlərindən sonra “ərizə və” sözləri əlavə edilsin;

4.2. 2.3.8-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.3.9-cu yarımbənd əlavə edilsin:

“2.3.9. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 18.2.1 - 18.2.4-cü maddələrində göstərilən sənədlər.”;

4.3. 3.3-cü bəndə “təqdim etdiyi” sözlərindən sonra “ərizə və” sözləri əlavə edilsin;

4.4. 3.3.6-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.3.7-ci yarımbənd əlavə edilsin:

“3.3.7. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 18.2.1 - 18.2.4-cü maddələrində göstərilən sənədlər.”.

5. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 9 aprel tarixli 613 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 613; 2020, № 7, maddə 898) ilə təsdiq edilmiş “Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin Nizamnaməsi”nin 3.1.6-cı, 3.1.9-cu və 3.1.10-cu yarımbəndlərində “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanunu” sözləri “Lisenziyalar və icazələr haqqında” və “Yerin təki haqqında” Azərbaycan Respublikasının qanunları” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyul 2021-ci il*

## Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Ötən dövrdə Azərbaycanda kənd təsərrüfatı sürətlə inkişaf edərək, qeyri-neft iqtisadiyyatının mühüm sahələrindən birinə çevrilmişdir. Aqrar sektorda həyata keçirilən islahatlar və yeni çağırışlara uyğun strateji hədəflərin müəyyənləşdirilməsi kənd təsərrüfatının davamlı inkişafına əhəmiyyətli təsir göstərmişdir. Bu çərçivədə elektronlaşmanın tətbiqi, dövlət xidmətlərinin optimallaşdırılması, eləcə də səmərəli idarəetmə sisteminin qurulması aqrar sahədə keyfiyyət dəyişikliyini şərtləndirmiş və emal sənayesinin güclənməsi üçün əlverişli imkanlar yaratmışdır.

Ölkədə aqrar emal sənayesinin dayanıqlı inkişafı qeyri-neft sektorunun ixrac potensialının möhkəmləndirilməsi və ərzaq təhlükəsizliyinin təmin olunması baxımından vacibdir. Bunu nəzərə alaraq, kənd təsərrüfatının yüksəlişinə dəstək mexanizmi məqsədyönlü şəkildə davamlı olaraq təkmilləşdirilməlidir.

Rəqabətədavamlı kənd təsərrüfatı məhsullarının emalı sənayesinin genişləndirilməsi və istehsalın dəyər zəncirinin həlqələri üzrə artırılması məqsədilə istehsalçıların müvafiq resurslara, o cümlədən əlverişli maliyyə resurslarına asan çıxışının təmin edilməsi, bazar infrastrukturunun və aqrar biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində işlərin sürətləndirilməsi tələb olunur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, kənd təsərrüfatı sahəsində istehsalın və emalın davamlı artımının təmin edilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. aşağıdakı sahələrdə normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair layihələri hazırlayıb beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

1.1.1. torpaqların kateqoriyalara aid edilməsi, onların bir kateqoriyadan digərinə keçirilməsi və məqsədli təyinatının dəyişdirilməsi;

1.1.2. torpaqların idarə edilməsi, mühafizəsi, qanunsuz istifadəsinin qarşısının alınması, habelə münbitliyinin qorunması, bərpası və artırılması;

1.1.3. aqrar emal məhsulları istehsalçıları tərəfindən kənd təsərrüfatı təyinatlı torpaqlarda yaşayış, suvarma infrastrukturu və emal üçün müvəqqəti tikililərin inşası;

1.1.4. aqroparkların fəaliyyətinin tənzimlənməsi;

1.2. aşağıdakı məsələlərlə bağlı təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

1.2.1. kənd təsərrüfatı təyinatlı torpaqların səmərəli istifadəsi məqsədilə həmin torpaq sahələrinin icarəyə və istifadəyə verilməsi mexanizminin təkmilləşdirilməsi, torpaqların konsolidasiyası təcrübəsinin tətbiqi;

1.2.2. ixrac məqsədli aqrar istehsal mallarına gömrük və vergi güzəştlərinin tətbiqi;

1.2.3. aqrotexniki xidmət göstərilməsi və mülkiyyət hüququnun saxlanılması şərtilə kənd təsərrüfatı texnikasının lizinqə (icarəyə) verilməsinin əlavə dəyər vergisindən azad edilməsi, habelə yerli kənd təsərrüfatı məhsullarının topdansatışı zamanı tətbiq edilən əlavə dəyər vergisinin ticarət əlavəsinə görə hesablanması;

1.2.4. idxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək məhsulların dairəsinin müəyyənləşdirilməsi, maya dəyərini təşkil edən xərclərin optimallaşdırılması və istehsal edilən yerli məhsulların qiymətinin azaldılması üçün aqrar emal müəssisələrinə vergi təşviqlərinin verilməsi;

1.2.5. aqrar istehsal sahəsində fəaliyyət göstərən müəssisələrin, habelə aqroparkların investisiya təşviqi mexanizmindən yararlanma imkanlarının genişləndirilməsi;

1.2.6. aqrar istehsal və emalla məşğul olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinə dövlət dəstəyi verilməsi, o cümlədən kredit-zəmanət üzrə yeni maliyyələşdirmə alətlərinin tətbiqi;

1.3. kənd təsərrüfatı məhsullarının ixracı üzrə prosedurların sadələşdirilməsinə dair tədbirlər görsün və nəticəsi barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi beş ay müddətində:

2.1. torpaq islahatı zamanı vətəndaşlara verilmiş pay torpaqlarına dair hüquqi və texniki sənədlərdəki məkan göstəriciləri ilə torpaqlardan faktiki istifadə vəziyyətinin məkan göstəriciləri arasında mövcud olan sərhəd, yerləşmə və konfiqurasiya fərqlərinin aradan qaldırılması ilə bağlı zəruri tədbirlər görsün və nəticəsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə birgə torpaq islahatı həyata keçirilməmiş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqlardan müvəqqəti istifadə mexanizminin formalaşdırılması ilə bağlı tədbirlər görsün və nəticəsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi:

3.1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə beş ay müddətində aqrar sahədə fəaliyyət göstərən emal müəssisələrinin xammala tələbatını, istehsalçıların istehsal etdiyi kənd təsərrüfatı məhsullarına dair məlumatları əks etdirən və elektron ticarət imkanlarına malik olan portalın yaradılması ilə bağlı “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq tədbirlər görsün və nəticəsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 iyul 2021-ci il*

## Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar üzrə İşçi Qrupunun növbəti iclası keçirilib

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar üzrə İşçi Qrupunun növbəti iclası keçirilib.




AZƏRTAC xəbər verir ki, İşçi Qrupa daxil olan aidiyyəti dövlət qurumlarının nümayəndələrinin iştirak etdiyi iclasda işğaldan azad edilmiş ərazilərdə nəqliyyat və rabitə infrastrukturunun bərpası məqsədilə hazırda icra edilən layihələr, o cümlədən dəmir və avtomobil yollarının, hava limanlarının tikintisi üzrə görülən işlər, mövcud tələbata uyğun olaraq telekommunikasiya şəbəkələrinin qurulması və rabitə xidmətlərinin təşkili üzrə layihələrin icra vəziyyəti, işğaldan azad edilmiş rayonların ərazisində aparılan radioloji və radioekoloji tədqiqatların ilkin nəticələri barədə aidiyyəti qurumlar tərəfindən ətraflı məlumatlar verilib və müzakirələr aparılıb.

İclasda Füzuli hava limanında tikinti və quraşdırma işlərinin sürətlə aparıldığı və ilin sonunadək hava limanına ilk uçuşların planlaşdırıldığı, eyni zamanda, Zəngilan və Laçın hava limanlarının tikintisinə başlanılması üçün hazırlıq və mobilizasiya işlərinin aparıldığı qeyd edilib. Qarabağ bölgəsinin ölkə və region iqtisadiyyatına reinteqrasiyası baxımından xüsusi əhəmiyyətli olan Horadiz-Ağbənd və Bərdə-Ağdam dəmir yolu xətlərinin, eləcə də Əhmədbəyli-Füzuli-Şuşa (Zəfər yolu), Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Qubadlı-Laçın və sair avtomobil yollarının tikintisi üzrə görülən işlər barədə məlumatlar verilib. İclasda aparılan müzakirələr zamanı işğaldan azad edilmiş ərazilərdə icra ediləcək infrastruktur layihələri üzrə layihə-smeta sənədlərinin hazırlanması və aidiyyəti qurumlarla razılaşdırılması proseslərinin sürətləndirilməsi, həmçinin ərazilərin minalardan təmizlənməsi işlərinin proritetlik nəzərə alınmaqla tərtib edilən icra qrafiklərinə uyğun davam etdirilməsi, hazırda işğaldan azad edilmiş ərazilərin rabitə təminatında mühüm rol oynayan mobil və xüsusi rabitə şəbəkələrinə aid baza stansiyası qurğularının daimi elektrik enerjisi ilə təminatı məsələlərinin vacibliyi vurğulanıb, bu istiqamətdə görülən işlərin sürətləndirilməsi üzrə müvafiq qərarlar qəbul edilib.

İşğaldan azad olunan ərazilərdə nəqliyyat və rabitə infrastrukturunun bərpası üzrə bütün qurumlar tərəfindən görülən işlərin İşçi Qrupu vasitəsilə İdarələrarası Mərkəzlə əlaqələndirilməklə icra edilməsinin, hər bir qurum və nümayəndə tərəfindən bu proseslərdə aktiv və qarşılıqlı əməkdaşlıq şəraitində iştirakın təmin edilməsi və görülən işlərə töhfə verilməsinin vacibliyi vurğulanıb.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

## Müdafiə naziri Əfqanıstanın Azərbaycana yeni təyin olunmuş səfiri ilə görüşüb

İyulun 15-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Əfqanıstan İslam Respublikasının ölkəmizə yeni təyin olunmuş səfiri Amanullah Ceyhun ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən nazir Azərbaycan ilə Əfqanıstan arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində görəcəyi işlərdə ona uğurlar arzulayıb.

Nazir Azərbaycan ilə Əfqanıstan arasında münasibətlərin inkişafında ölkə rəhbərlərinin rolunu xüsusi vurğulayaraq hərbi sahədə də ikitərəfli əlaqələrin uğurla davam etdiyini bildirib.

Azərbaycan Ordusunun hərbi qulluqçularının Əfqanıstandakı “Qətiyyətli Dəstək” qeyri-döyüş missiyasında iştirakını diqqətə çatdıran general-polkovnik Z.Həsənov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə Əfqanıstana nəqliyyat və logistik dəstəklə yanaşı, ölkəmizin, eyni zamanda, NATO missiyasına multimodal tranzit, təlim və Əfqan Milli Ordusu üzrə Etimad Fonduna maliyyə yardımı ilə də töhfə verdiyini qeyd edib.

Azərbaycanın ərazi bütövlüyü məsələsində Əfqanıstanın hər zaman açıq mövqe nümayiş etdirdiyini deyən müdafiə naziri ölkəmizin ədalətli mübarizəsini dəstəklədiyinə görə qardaş Əfqanıstan xalqına təşəkkürünü bildirib.

Ölkəmizdə səfir kimi fəaliyyətə başlamasından məmnunluğunu ifadə edən A.Ceyhun Azərbaycan-Əfqanıstan əlaqələrinin, xüsusilə də hərbi sahədə əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcəyini diqqətə çatdırıb.



Vətən müharibəsində qazanılan Qələbə münasibətilə xalqımızı təbrik edən diplomat şəhid hərbi qulluqçulara və mülki şəxslərə Allahdan rəhmət, yaralılara isə şəfa diləyib. Ölkələrimizin hər zaman müxtəlif beynəlxalq təşkilatlarda bir-birinin mövqeyini dəstəklədiklərini diqqətə çatdıran səfir A.Ceyhun Əfqanıstanda həyata keçirilən sülhməramlı missiyasına Azərbaycan hərbçilərinin verdiyi töhfəyə görə minnətdarlığını bildirib.

Səfir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə Azərbaycanın və Əfqanıstanın Müdafiə nazirlikləri arasında imzalanan sazişə əsasən, əfqanıstanlı hərbi qulluqçuların Azərbaycan Müdafiə Nazirliyinin xüsusi təyinatlı hərbi təhsil müəssisələrində təhsil almalarının əhəmiyyətini vurğulayıb.

Görüşdə ikitərəfli münasibətlərin hazırkı vəziyyəti, hərbi əməkdaşlığın, xüsusilə hərbi təhsil sahəsində əlaqələrin inkişaf perspektivləri müzakirə edilib, regional təhlükəsizlik və müdafiə sahəsində qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparılıb.

## Azərbaycanda koronavirus infeksiyasından daha 74 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 74 nəfər müalicə olunaraq sağalıb, 199 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 337 min 801 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 331 min 20 nəfər müalicə olunaraq sağalıb, 4990 nəfər vəfat edib. Aktiv xəstə sayı 1791 nəfərdir.

Ötən müddət ərzində 3 milyon 886 min 55 test aparılıb. Dünənki test sayı isə 9093-dür.

## İyulun 15-də Azərbaycanda koronavirusa qarşı 42 minə yaxın doza vaksin vurulub

İyulun 15-də Azərbaycanda yeni koronavirus (COVID-19) infeksiyasına qarşı 41 min 733 doza vaksin vurulub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, onlardan birinci mərhələ üzrə vaksinasiyadan keçənlərin sayı 17 min 994, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 23 min 739 nəfər olub.

Hazırkı dövrədək ölkəmizdə vurulan vaksin dozalarının ümumi sayı 4 milyon 242 min 727-yə bərabərdir. Birinci mərhələ üzrə vaksin vurduranların sayı 2 milyon 530 min 767, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 1 milyon 711 min 960 nəfərdir.

AZƏRBAYCAN www.azerbaijan-news.az

# Cahit BAĞÇI: “Biz hər zaman olduğu kimi, 15 iyul hadisələrində də Azərbaycan dövlətinin, xalqının dəstəyini gördük”

Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı Türkiyə-Azərbaycan dostluq əlaqələri, Şuşa Bəyannaməsi, həmçinin Türkiyədə 2016-cı il 15 iyul dövlət çevrilişinə cəhd ilə bağlı AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.



*- Cənab səfir, Azərbaycanda diplomatik fəaliyyətə başlamağınız münasibətilə sizi təbrik edir, işinizdə uğurlar arzulayırıq. İnanırıq ki, fəaliyyətiniz dövründə ölkələrimiz arasında münasibətlər daha da inkişaf edəcək və möhkəmlənəcək. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, bu gün dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə bağlı, yaxın olan ölkələr yoxdur.*

- Təbrik üçün təşəkkür edirəm. Öncə onu demək istəyirəm ki, Azərbaycan Dövlət İnformasiya Agentliyinə (AZƏRTAC) müsahibə vermək mənim üçün şərəfdir. Bilirəm ki, AZƏRTAC və Türkiyənin “Anadolu” Agentliyi bir-biri ilə sıx əməkdaşlıq edən və bərabər səviyyədə fəaliyyət göstərən media qurumlarıdır.

Türkiyə-Azərbaycan dostluğu barədə çox deyilib, çox yazılıb. Əsas mahiyyət isə ondan ibarətdir ki, ölkələrimiz arasında əlaqələrdən heç bir tərəf mənfəət, qazanc güdmür, bu münasibətlər sırf dostluq əsasında qurulub. İki qardaş ölkənin əlaqələri Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Ümummilli Lider Heydər Əliyevin dediyi kimi, bir çərçivədə sığışır. Bu çərçivə iki ölkənin qardaşlığı üzərində ucalır.

Ölkələrimiz arasında münasibətləri gözəl xarakterizə edən bir ifadə var - iki ananın bir oğlu, bir amalın iki qolu. Şair Bəxtiyar Vahabzadənin dediyi kimi, Azərbaycan və Türkiyə, doğrudan da, bir ananın iki övladıdır. Biz eyni kökə, dilə mənsub xalqıq. Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir. Türkiyə-Azərbaycan qardaşlığını, dostluğunu ən gözəl şəkildə Ulu Öndər Heydər Əliyev ifadə edib. Qısaca desək, kədəri bir, sevinci bir olan iki millətin qardaşlığı, dostluğu strateji zəminə daşınıb. Yenə də təkrar edirəm, bizim dostluğumuzda, qardaşlığımızda xeyir güdülməyib.

Tarixdə bu dostluğun önəmini göstərən çoxlu nümunələr var. 1918-ci ildə Osmanlı dövləti bütün cəbhələrdə savaşmasına, özü də çətin vəziyyətdə olmasına baxmayaraq, tərəddüd etmədən bolşevik və daşnaklara qarşı vuruşmaq üçün Qafqaz İslam Ordusunu Azərbaycana köməyə göndərdi. Bu ordunun əsgərləri Bakı və ətraf qəzalarda türk-müsəlman əhalisinə qarşı soyqırımı aktının qarşısının alınmasında böyük rol oynadılar. Osmanlı ordusunun generalı, Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa Gəncəyə çatanda onun 20 minlik ordusu var idi. Bu, bir qardaşın çətin anında digər qardaşın yardımına yetişməsidir. Türkiyə və Azərbaycanın bir-birinə qardaş dəstəyini hələ bu hadisədən əvvəl Çanaqqala döyüşündə də görmüşdük. Hələ Birinci Dünya müharibəsi illərində Osmanlı dövləti ilə çar Rusiyası arasında qarşıdurma başlayanda azərbaycanlılar gizli yollarla keçərək türk qardaşlarının köməyinə gəldilər. Azərbaycan həm əsgər, həm də maddi baxımından öz köməyini göstərdi. Bizim övladlarımız sizin, sizin övladlarınız isə bizim övladlarımız oldu. Bakıda, Gəncədə uyuyan türk əsgərləri həm də Azərbaycanın oğullarıdır.

*- Cənab səfir, iyulun 15-i qardaş Türkiyə üçün həm ağrılı, həm də qürurlu gündür. Təsadüfi deyil ki, bu gün Türkiyədə “Demokratiya və Milli Birlik Günü” kimi qeyd olunur. Beş il əvvəl növbəti dövlət çevrilişi cəhdinə məruz qalan Türkiyə çox çətin günlər yaşadı, ciddi sınaqlardan çıxdı, şəhidlər verdi. Azərbaycanda da bizim həyəcanla izlədiyimiz həmin hadisələrlə bağlı nə demək istərdiniz?*

- Türkiyədə dəfələrlə hərbi çevriliş cəhdləri olub. İyulun 15-dəki dövlət çevrilişi cəhdi isə digərilərindən fərqlənir. Bütün dövlət qurumlarının, o cümlədən ordunun və polisin içərisinə yerləşdirilən bu qüvvələrin planı dövləti ələ keçirmək idi. Amma Türkiyə dövləti və türk xalqı buna imkan vermədi. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın bir çağırışı ilə insanlar küçələrə, meydanlara axışaraq tankların qarşısına çıxdılar. Bir sözlə, vətəndaşlarımız həyatlarını təhlükəyə ataraq Vətənə sahib çıxdılar. Necə ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə azərbaycanlı qardaşlarımız tankların qarşısına əliyalın çıxmışdılar. Bu, millət, Vətən və bayraq sevgisidir. Türk insanı milli birliyə, dövlətçiliyə xələl gəlməsin deyə, canını qurban verdi. Türk xalqı həmin gün öz rəhbərinin, seçilmiş hökumətinin müdafiəsinə qalxaraq zəfər qazandı. Həmin gün Türkiyə xalqı Vətən, dövlətçilik və demokratiya uğrunda mübarizə apardı. Biz bu hadisələrdə də Azərbaycan dövlətinin, xalqının dəstəyini gördük və bunu unutmuruq.

Təsəvvür edin, Türkiyə şərqdən Suriyada, İraqda PKK təhdidi ilə qarşı-qarşıya mübarizə apardığı bir zamanda, həm də içərimizdəki xainlərlə - fetöçularla mübarizə aparmalı oldu. Eyni ilə Osmanlı dövlətinə olan hücum kimi. Çox şükür ki, Türkiyə bu sınaqdan da çıxa bildi. Təəssüf ki, dövlət çevrilişi cəhdinin ağır nəticələri oldu. 15 iyul hadisələri zamanı 250-dən çox insan həlak oldu, hazırda 2193 qazimiz var. Onların bəzilərinin müalicəsi hələ də davam edir. Dövlətimiz şəhidlərin ailələri və qazilər üçün əlindən gələni edir. Başda Ömər Halisdemir, Erol Orçak, İlhan Varank, müxbir Mustafa Canbaz olmaqla bütün şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyirəm.

Onu da demək istəyirəm ki, FETÖ yalnız Türkiyənin problemi deyil, həm də başqa ölkələrin problemidir. Çünki bu terror təşkilatının üzvləri qaldıqları ölkələr üçün problemlər yaratmaqda davam edəcəklər. Başda Azərbaycan olmaqla, türk dünyası lazımi tədbirlər görərək FETÖ bəlasından xilas olmağı bacardı. Qardaş ölkələrin acı və problem yaşamaması üçün bunu bilmələri vacibdir.

Dövlətimiz 15 iyul hadisəsindən ibrət götürərək Türkiyəni daha da gücləndirmək, söz sahibi etmək üçün mühüm işlər gördü. Türkiyə dövləti bir daha bunları yaşamamaq üçün lazım olan bütün tədbirləri görməkdə davam edir. Biz tarixin dərslərindən ibrət götürməli, baş verənləri unutmamalıyıq.

*- Cənab səfir, bu günlərdə Gəncə şəhərinə səfər etmisiniz. Səfər təəssüratlarınızı bölüşmənizi istərdik.*

- Azərbaycanın qədim şəhərlərindən olan Gəncədən yenicə qayıtmışam. Orada olduğum müddətdə bir sıra yerlərə baş çəkdik. Həmçinin Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması nəticəsində dağılan ərazilərdə də oldum.

Gəncədə mənə yüz il əvvəl baş verən maraqlı hekayələr danışdılar. Gəncəlilər 1918-ci ildə bolşevik və daşnaklarla döyüşlər zamanı yaralanan türk əsgərlərini evlərində gizlədir, yaralarını sarıyırlarmış. Yaralı türk əsgərləri vəfat etdiyi təqdirsə isə, onları öz valideynlərinin, övladlarının yanında dəfn edirlərmiş. Bu, bizim nə qədər yaxın və doğma xalqlar olduğumuzu təsdiqləyən çoxsaylı tarixi faktlardan yalnız biridir.

*- Azərbaycan qardaş Türkiyənin dəstəyini növbəti dəfə sentyabrın sonlarında başlayan 44 günlük Vətən müharibəsində də gördü...*

- Doğrudan da, biz bu qardaşlığı Ermənistanın 30 il işğal altında saxladığı torpaqları azad etmək uğrunda apardığı Vətən müharibəsində bir daha gördük. Türkiyə Azərbaycanın haqq mübarizəsində onun yanında oldu, mənəvi və siyasi dəstəyini əsirgəmədi.

Azərbaycan 44 günlük savaşda şəhidlər versə də, Zəfər qazanaraq öz ərazi bütövlüyünü bərpa etdi. 2021-ci il iyunun 15-də Azərbaycan və Türkiyə arasında imzalanan Şuşa Bəyannaməsi bu dostluğa, qardaşlığa öz möhürünü vurdu. Bu sənədin mənəvi və strateji əhəmiyyəti çox böyükdür. Qars müqaviləsi Naxçıvanın zəmanətidirsə, Şuşa Bəyannaməsi Azərbaycanın təhlükəsizliynin təminatıdır. Bu tarixi sənədin imzalanması o deməkdir ki, bundan sonra Azərbaycan üçün kənardan gələ biləcək hər hansı bir təhdid, həmçinin Türkiyə üçün də bir təhdiddir.

2021-ci il 15 iyun tarixi Azərbaycanın və Türkiyənin tarixinə yazıldı. Zaman keçdikcə bu sənədin nə qədər önəmli və əhəmiyyətli olduğu daha dərindən dərk ediləcək. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalı, bu coğrafiyada sülh şəraitində birgə yaşamağı qəbul etməlidir. Şuşa Bəyannaməsi də Qafqazda, Xəzər hövzəsində sülhü və təhlükəsizliyi təmin etməyə yönəlib.

*- Cahit bəy, necə düşünürsünüz, Zəngəzur dəhlizinin açılması region ölkələrinin siyasətində və iqtisadiyyatında nə kimi rol oynayacaq?*

- Şuşa Bəyannaməsində ən mühüm məqamlardan biri də Zəngəzur dəhlizi ilə bağlıdır. Zəngəzur dəhlizi sadəcə, Azərbaycanla Türkiyəni deyil, həm də Qərblə Şərqi birləşdirəcək. Yəni Çindən bir qatar çıxıb Londona gedəndə sadəcə, Çinin mallarını götürməyəcək, həmçinin Qazaxıstan, Türkmənistan, Qırğızıstan, Özbəkistan, Azərbaycan, İran, Gürcüstan və Ermənistanın da mallarını daşıyacaq. Təbii ki, Zəngəzur dəhlizinin açılması Ermənistanın da ticarətinə, iqtisadiyyatına müsbət təsir göstərəcək. Bu dəhliz həm də ölkələrin siyasi müstəvidə anlaşmasında mühüm rol oynayacaq.

Ümummilli Lider Heydər Əliyev Xəzərdən neft çıxarılmasında xarici şirkətlərin fəaliyyətinə səlahiyyət verdiyi kimi, burada da müsbət tərəflər çoxdur. Qərb şirkətlərinin Azərbaycanda olması ölkənin təhlükəsizliyinə birbaşa təsir edən amillərdir. Bu, Ulu Öndərin böyük siyasi manevri olaraq dövlət müstəqilliyini yenidən bərpa etmiş Azərbaycan üçün çox vacib idi. Zəngəzur dəhlizinin açılması da eyni ilə region ölkələrinin hər birinin xeyrinədir.

*- Müsahibə üçün təşəkkür edirik.*

# Prezident İlham Əliyevin elmə və biliyə əsaslanan inkişaf strategiyası, onun kadr təminatı

Azərbaycan uğurla inkişaf edir və bu proses həm iqtisadi, sosial və humanitar sahələri əhatə edir, həm də dövlət idarəçiliyində tətbiq olunan tam yeni dövlət idarəçilik texnologiyalarına əsaslanır. Dövlət idarəçiliyində innovativ texnologiyaların tətbiqinin nəticəsidir ki, bu gün beynəlxalq təşkilatların rəsmi hesabatlarına əsasən müstəqilliyinin bərpasından cəmi 30 il keçmiş Azərbaycan Respublikası dünyada inkişafın davamlı və sosialyönümli olması və inklüziv cəmiyyətin qurulması naminə maliyyə resurslarını və insan potensialını ən səmərəli istifadə edən ölkədir.



Bu nailiyyətlərin əldə edilməsinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Prezident İlham Əliyev isə dövlət idarəçilik texnologiyalarını tam yeni səviyyəyə qaldırmış və bugünkü uğurların qazanılmasını təmin etmişdir. Bu texnologiyaların əhəmiyyətli hissəsini institusional islahatlar təşkil edir. Birinci vitse-prezident institutunun yaradılması, bu vəzifədə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın milli və beynəlxalq səviyyədə olduqca səmərəli fəaliyyəti müasir dünyanın əsas prioriteti olan inklüziv cəmiyyətin qurulmasını, bunun üçün yeni nəsil idarəçilərin formalaşmasını təmin etmişdir.

Prezident İlham Əliyevin dövlət idarəçiliyində tətbiq etdiyi innovativ texnologiyalar əsasında insan potensialının inkişafı, bu potensialın iqtisadiyyatda insan kapitalına çevrilməsi, ölkənin inkişafının davamlılığı naminə dayanıqlı iqtisadiyyatın və əlverişli sosial mühitin formalaşdırılması durur. 44 günlük şanlı Vətən müharibəsi, ölkənin ərazi bütövlüyünün bərpası və bununla BMT Təhlükəsizlik Şurasının 4 Qətnaməsinin yerinə yetirilməsi, yüz minlərlə qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qayıtması üçün imkan və şəraitin yaradılması, bu ali əhəmiyyətli fəaliyyətlərin qlobal miqyasda diplomatik və informasiya təminatı ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən şəxsən həyata keçirilmişdir.

İnnovativ inkişaf ölkənin əsas məqsədi olaraq qalır və daha da güclənir. Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sərəncamı, 7 iyul 2021-ci il “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” fərmanı ölkənin sürətli və innovativ inkişafının davamlılığı və genişmiqyaslılığının göstəricisidir.

İnkişafın innovativliyinin təmin edilməsi yalnız yüksək elmi və kadr təminatı şəraitində mümkündür. 2030-cu il üçün hədəflənən işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışı təmin etmək, ölkədə “ağıllı” yaşayış məntəqələrinin salınması, iqtisadiyyatın müxtəlif sahələrində “yaşıl” istehsalın təşkili, inklüziv cəmiyyətin formalaşması proseslərində ölkənin elmi təşkilatları və alimlərinin iştirakının təşviqi də eyni məqsədə xidmətdən xəbər verir. Prezident İlham Əliyev tərəfindən imzalanmış fərman və sərəncamlardan aydın olur ki, yaxın gələcəkdə elm tutumlu inkişaf daha da güclənəcək, elmin rolu və eyni zamanda məsuliyyəti daha da artacaq. Belə bir şərait elmi işçilərin, ümumiyyətlə, peşəkarların hazırlanması prosesinin də yenidən nəzərdən keçirilməsini və təkmilləşdirilməsini tələb edir.

Qeyd olunan təkmilləşdirmə elmi işçilərin və ümumiyyətlə, peşəkarların hansı istiqamətdə hazırlanması məsələsini də özündə ehtiva edir. Təhlillər göstərir ki, bu sahədə təkmilləşdirməyə ehtiyac olduqca yüksəkdir. Bunu ölkənin rəsmi statistikası da göstərir. Məsələn, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi 2021-ci ildə “Doktoranturanın işi haqqında” hesabat dərc edib.

Hesabatda 2020-ci ildə elm sahələrinə görə fəlsəfə doktoru proqramı üzrə təhsil alanların sayı təqdim olunub. Statistik hesabatdan eyni zamanda aydın olur ki, elmin hansı sahələri üzrə ixtisaslaşmış mütəxəssislər yaxın illərdə ölkənin intellektual əmək bazarına daxil olacaqlar və orada ən azı gələcək 25-30 ildə sayca üstünlük təşkil edəcəklər. Hesabata görə, hazırda doktoranturada sayca ən çox təhsil alanlar iki ixtisasda təmsil olunublar: iqtisadiyyat və filologiya. 2020-ci ildə təhsil alan 2512 doktorantdan 424-ü iqtisad elmləri, 319-u isə filologiya elmləri sahəsində elmi çalışmalar həyata keçiriblər. Faiz göstəricisinə gəldikdə aydın olur ki, gələcək fəlsəfə doktorlarının 16,9 faizi iqtisadçı, 12,7 faizi isə filoloq olacaq. Müqayisə üçün qeyd edilməlidir ki, ölkədə sənayenin bütün sahələrinin elmi təminatı üçün hazırlanan texniki elmlər üzrə fəlsəfə doktorlarının sayı 275 nəfər, yəni yalnız 10,9 faizi təşkil edir. Ölkənin iqtisadiyyatında, sosial həyatında, əhalinin əmək məşğulluğu üçün xüsusi əhəmiyyət daşıyan aqrar elmlər üzrə hazırlanan doktorantların sayı 177-yə, yəni 7 faizə bərabərdir. Azərbaycan üçün fövqəladə əhəmiyyət daşıyan neft və qaz, mədən sənaye sahələrini təmsil edən yer elmləri sahəsində doktoranturada təhsil alanlar cəmi 2,3 faiz təşkil edir (Şəkil 1).




**Şəkil 1.** Azərbaycan Respublikasında 2020-ci ildə elmin sahələrinə görə fəlsəfə doktoru proqramı üzrə təhsil alanlar, %. *Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2021.*

Şəkildən göründüyü kimi, ölkəmizdə gələcək onilliklərdə alimlərin təxminən 30 faizini iqtisadçı və ya filoloqlar təmsil edəcək. Elmin bu istiqamətləri olduqca əhəmiyyətlidir. İqtisadçı alimlər ölkənin inkişaf prosesinə vacib töhfələr verib və verəcəklər. Eyni zamanda Azərbaycan ədəbiyyatı olduqca zəngindir və bu sahədə elmi tədqiqatlar çox əhəmiyyətlidir. Bu səbəbdən planlaşdırılan sayda iqtisadçı və filoloqların hazırlanması həyata keçirilməlidir. Lakin Prezident İlham Əliyevin müasir idarəetmə strategiyasına müvafiq olaraq, ölkədə elmə əsaslanan innovativ iqtisadi, sosial və humanitar inkişafın davamlılığını təmin etmək üçün hazırlanan alimlər və mütəxəssislər arasında iqtisadiyyatın real sektoruna, ölkəyə gəlir gətirən sahələrə xidmət edən alim və mütəxəssislərin hazırlanmasının da layiqli səviyyəyə çatdırılması zəruridir.

Doktorantura səviyyəsində müşahidə olunan ixtisaslar arasında qeyri-mütənasiblik bakalavr və magistr səviyyələrində də özünü göstərir. Məsələn, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin dərc etdiyi hesabata əsasən, 2019-ci ildə magistraturanı bitirmiş 6,1 min mütəxəssisin 2 mini (32,8 faizi) iqtisadiyyat və idarəetmə ixtisaslarına yiyələnib. Real iqtisadiyyata aid olan texnika və texnologiya ixtisaslarına yiyələnmiş magistrlərin sayı isə 1,2 mindir (19,6 faiz). Kənd təsərrüfatı ixtisasları üzrə magistraturanı 100 nəfər (1,6 faiz) bitirmişdir. Buradan aydın olur ki, real iqtisadiyyatda, sənaye və ya kənd təsərrüfatında çalışmaq üçün magistr səviyyəsində hazırlanmış 1300 mütəxəssis olduğu halda əmək bazarına 2000 iqtisadçı və idarəçi daxil olur. Bu isə o deməkdir ki, magistr səviyyəsində əmək bazarında 1 mühəndis, aqronom və ya zootexnikə 1,5 iqtisadçı və ya idarəçi düşür. Dövlətin rəsmi statistik hesabatlarına əsasən, bakalavr səviyyəsində hazırlıqda da ixtisaslar arasında oxşar nisbət müşahidə olunur.

Aydındır ki, müxtəlif səviyyələrdə (doktorantura, magistratura, bakalavriatura) kadr hazırlığında ixtisaslar arasında müşahidə edilən hazırkı nisbət optimal hesab edilə bilməz. Prezident İlham Əliyev tərəfindən hədəflənmiş qabaqlayıcı inkişafın davamlılığını və bunun üçün insan potensialının formalaşmasını təmin etmək üçün təhsilin müxtəlif səviyyələrində ixtisaslar arasında nisbət optimallaşdırılmalı, mövcud və gələcək əmək bazarının tələblərinə uyğunlaşdırılmalıdır.

Qeyd edilməlidir ki, oxşar vəziyyətə və təhsildə ixtisaslar arasında müşahidə olunan mütənasibsizliyə bir sıra, xüsusən iqtisadi baxımdan yüksək inkişaf etmiş ölkələrdə də rast gəlinir və bu beynəlxalq səviyyədə müzakirə obyektidir. Hazırkı məqalənin müəllifi inkişaf prosesinin idarə edilməsinə dair bir sıra ölkələrdə, o cümlədən ABŞ-ın aparıcı universitetlərində və bu ölkədə yerləşən beynəlxalq inkişaf institutlarında (BMT, Dünya Bankı) məruzələrlə çıxış etmiş və seminarlar keçirmişdir. Həmin tədbirlərdə istifadə olunan və kadr potensialının formalaşması prosesinin optimal idarə edilməsini əks etdirən piramida Şəkil 2-də əks etdirilmişdir.




**Şəkil 2.** Təhsilin müxtəlif səviyyəsində və müxtəlif ixtisaslar üzrə insan potensialının optimal formalaşdırılması

Şəkil 2-dən göründüyü kimi, piramidanın əsasını və müvafiq olaraq fərqli səviyyədə təhsilə cəlb olunmuşların ən çoxsaylı hissəsini yeni bilik və innovativ məhsullar yaradan təbiət, texniki və aqrar elmlər sahəsində çalışanlar təşkil edir. Bu istiqamətdə elm və texnologiyaların inkişafı nəticəsində yaradılmış yüksək rəqabətqabiliyyətli innovativ məhsul və xidmətlərin kütləvi istehsalını, ölkədə və xaricdə istifadəçiyə çatdırılmasını təmin edən mühəndis, memar, aqronom, zootexnik, digər oxşar sahələrdə təhsil almış və fəaliyyət göstərə bilən mütəxəssislər piramidanın əsasını təşkil edir. Bu, sayca ən böyük qrupdur.

Piramidanın ikinci səviyyəsində cəmiyyətdə innovativ inkişaf üçün əlverişli sosial, mədəni, mənəvi mühitin formalaşmasına xidmət edən və bu sahədə təhsilin müxtəlif səviyyəsində hazırlanmış mütəxəssislər cəmləşib. Prezident İlham Əliyevin 2 fevral 2021-ci il fərmanı ilə prioritet kimi hədəflənmiş inklüziv cəmiyyətin formalaşmasında bu sahənin mütəxəssislərinin rolu çox böyükdür. Bu istiqamətin inkişafında ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rolu olduqca böyükdür və Azərbaycan Respublikasını dünya liderləri səviyyəsinə qaldırıb.

İqtisadiyyat və idarəetmə sahəsində təhsil almış və çalışan mütəxəssislər daha yüksək və daha elitar üçüncü səviyyədə təmsil olunublar. Onların funksiyası piramidanın birinci səviyyəsində əldə edilmiş yeni biliklər və onların əsasında yaradılmış yüksək rəqabətqabiliyyətli məhsulların istehsal və istifadə proseslərini ən səmərəli şəkildə təşkil etməkdir. Eyni funksiyalar piramidanın ikinci səviyyəsində təqdim olunmuş sosial və humanitar işlərə də aiddir. Piramidanın birinci və ikinci səviyyələrində əldə edilmiş elmi və texnoloji nailiyyətlər nə qədər zəngin və innovativ olarsa, üçüncü səviyyədə idarəetmə imkanları bir o qədər geniş olacaq. Bir daha qeyd edilməlidir ki, bu ixtisasların xüsusi statusu mövcuddur və bu elitar status qorunmalıdır. Hüquqşünaslar isə piramidanın dördüncü ən dar seqmentini təşkil edir. Onların funksiyası innovativ inkişafın davamlılığını təmin etmək üçün əlverişli hüquqi mühitin yaradılması və bu mühitin mühafizəsidir. Qeyd edilməlidir ki, əmək bazarında iş yerləri təxminən bu nisbətdə formalaşır.

İxtisasın düzgün seçimi, əmək bazarının hazırkı və gələcək tələblərinin nəzərə alınması yalnız iqtisadi və sosial problem deyil. İxtisasın düzgün seçilməsi ömürboyu təhsilin genişləndirilməsi və diversifikasıyası, müxtəlif səviyyələrdə təhsilə cəlb olunanların gözləntilərinin idarə edilməsi məmnunluğunun təmini üçün olduqca əhəmiyyətlidir. Bu iki amil isə dövlətin siyasi təhlükəsizliyi üçün də olduqca əhəmiyyətlidir. Hazırda doktorantura, magistratura, bakalavriatura səviyyələrində qəbul və ixtisas seçimləri həyata keçirilir. Düşünürəm ki, təqdim olunan məlumatlar bu prosesdə faydalı ola bilər.

***Urxan ƏLƏKBƏROV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik***

# Azərbaycan ərazisində terror-təxribat cinayətləri törədən erməni silahlı dəstələrinin üzvlərinin məhkəməsi təxirə salınıb

Ötən il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatla atəşkəsin elan edilməsindən sonra Azərbaycan Respublikasının ərazisinə gizli yollarla qanunsuz şəkildə daxil olub, Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik ərazidə mövqe tutaraq hərbi qulluqçularımıza və mülki şəxslərə qarşı terror-təxribat və digər cinayət əməlləri törədən erməni silahlı dəstələrinin üzvlərinin cinayət işi üzrə iyulun 15-də Bakı Ağır Cinayətlər Məhkəməsində növbəti məhkəmə iclası davam etdirilib.

AZƏRTAC xəbər verir ki, hakim Faiq Qəniyevin sədrliyi ilə keçirilən prosesdə bu cinayət işi üzrə təqsirləndirilən şəxslər Aramyan Karen Armenoviç, Qevorkyan Qriqor Qevorqiyeviç, Giraqusyan Eduard Armenoviç, Avakyan Tiqran Manikoviç və digərlərinin terror-təxribat cinayətləri ilə bağlı cinayət işinə baxılıb.

Hakim bildirib ki, təqsirləndirilən şəxslərdən ikisinin vəkili məhkəmə prosesində iştirak etmir. Buna görə prosesdə fasilə elan olunub.

Fasilədən sonra hakim bəyan edib ki, məhkəmənin indiki mərhələsi müdafiə tərəflərinin iştirakı olmadan davam etdirilə bilməz. Bu səbəbdən məhkəmə iclası iyulun 29-na təxirə salınıb.

Xatırladaq ki, 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış üçtərəfli bəyanatla atəşkəsin elan olunmasından sonra Azərbaycan Respublikasının ərazisinə qanunsuz olaraq gizli yollarla keçib, Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik ərazidə mövqe tutaraq hərbi qulluqçularımıza və mülki şəxslərə qarşı terror-təxribat və digər cinayət əməlləri törədən erməni silahlı dəstələrinin Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən 2020-ci il dekabrın 13-də keçirilmiş antiterror əməliyyatı nəticəsində tərk-silah edilmiş üzvləri barəsində cinayət işinin istintaqı DTX-nin İstintaq Baş İdarəsində aparılıb.

İstintaqla müəyyənləşdirilib ki, Ermənistan Respublikasının vətəndaşlarından ibarət bir qrup şəxs qanunsuz şəkildə odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə edərək qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələr yaratmışlar. Həmin birləşmələrin üzvləri 2020-ci il noyabrın 26-27-də Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq mütəşəkkil dəstə halında keçməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik və digər ərazilərində döyüş mövqeləri tutaraq 2020-ci il dekabrın 13-dək ölkə ərazisində yerləşən müəssisə, idarə, təşkilatlara, habelə ayrı-ayrı şəxslərə silahlı basqınlar edib, ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, Azərbaycan Respublikasının dövlət hakimiyyət orqanları və beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və digər terror əməlləri törədiblər.

Bu faktlarla bağlı qanunsuz silahlı birləşmənin üzvləri Avakyan Qraç Arzumanoviç, Serobyan Geğam Samveloviç və digərlərinin, ümumilikdə 14 təqsirləndirilən şəxsin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214.2.1-ci, 214.2.3-cü (terrorçuluq, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə törədildikdə), 228.3-cü (mütəşəkkil dəstə tərəfindən qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, saxlama, daşıma və gəzdirmə), 279.2-ci (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların tərkibində müəssisələrə, idarələrə, təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmə) və 318.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunurlar.

# “Şəhid ailələri, Qarabağ qaziləri bilməlidirlər ki, biz daim onların yanındayıq, sözdə yox, əməldə”

## Prezident İlham Əliyev dövlətin bu siyasətinin davamlı olduğunu bir daha bəyan etdi

Əvvəli 1-ci səh.

7 min nəfər özünüməşğulluq proqramına, 56 min nəfər isə ictimai işlərə cəlb olunub. Bu il ölkədə 16 min insanın özünüməşğulluq proqramına cəlb olunması nəzərdə tutulub. Onların arasında artıq 5 mindən çox şəhid ailəsinin üzvləri və müharibə əlilləri var.

2018-2020-ci illərdə bu qəbildən olan vətəndaşların orta aylıq əməkhaqqının 30, orta aylıq pensiyasının 60 faiz artması da həmin diqqət və qayğının nəticəsidir.

Qazilərin məşğulluq məsələlərinin həlli istiqamətində çağırışa özəl sektor müsbət reaksiya verib. Bu da təbiidir. Çünki özəl sektorun inkişafı üçün dövlət böyük işlər görüb. İndi də sahibkarlar öz sosial məsuliyyətini göstərir. Məşğulluq marafonuna 200-dən çox sahibkar qoşulub və 160 qazi artıq işlə təmin olunub. Görünür ki, bu təşəbbüsün çərçivələri getdikcə daha da genişlənəcək.

Vətən müharibəsinin Qələbə ilə başa çatmasından sonra ölkədə 24 min şəxsə 33 min xidmət göstərilib. Şəhid ailələri və xəsarət alan hərbçilərlə bağlı Prezidentin bu ilin iyun ayında imzaladığı fərmanla yaradılan Vahid Əlaqələndirmə Mərkəzində 7 qurum üzrə 26 xidmət göstəriləcək. Yaxın iki ay ərzində bu cür mərkəzlər DOST mərkəzlərində fəaliyyətə başlayacaq.

Lakin təkcə maddi deyil, mənəvi dəstək də böyük önəm daşıyır. Prezident İlham Əliyev qazilər və şəhid ailələri ilə tez-tez görüşlər keçirir, onlara mənəvi dəstək verir, məişət problemləri ilə maraqlanır. Elə sözügedən tədbirdə Prezidentin şəhid ailələrinin üzvləri və müharibə əlilləri ilə görüşməsi, onları mənzil almaqları münasibəti ilə səmimi təbrik etməsi hamısının ürəyincə oldu. Dövlət başçısı bu insanları yüksək dəyərləndirdiyini bir daha vurğuladı: “Vətən uğrunda öz canlarını fəda etmiş qəhrəman övladlarımızın ailə üzvləri dövlət tərəfindən qayğı ilə əhatə olunmalıdır və biz bunu bu gün əyani şəkildə görürük. Öz sağlamlığını itirmiş, yaralanmış qazilər bütün dövlət orqanları tərəfindən daim qayğı ilə əhatə olunmalıdır və biz bunu təmin edirik. Onu da bildirməliyəm ki, bizdə bu sahədə tətbiq olunan prinsiplər öz unikallığı ilə seçilir. Çünki bir çox ölkələrdə müharibələr, münaqişələr olub, ancaq mən elə bir ölkə tanımıram ki, müharibələrdə həyatını itirmiş insanların yaxınlarına bu dərəcədə diqqət göstərilsin. Ermənistan da itkilər verib və İkinci Qarabağ müharibəsində bizdən haradasa 2-3 dəfə çox itki verib. Amma baxın görün, orada müharibədə ölənlərin ailəsinin birinə bir mənzil verilir? Yox. Avtomobil verilir? Yox. Bir daxma da verilmir. Yəni bu, onu göstərir ki, bizim bu sahədəki siyasət, sözün əsl mənasında, milli siyasətdir. Çünki bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Ən həssas kateqoriyadan olan vətəndaşlar ilk növbədə dövlət tərəfindən qayğı ilə əhatə olunmalıdır”.



Müharibə dövründə evlərini və yaxınlarını itirmiş mülki şəxslərin də problemləri həll olunur. İndi bütün dünya bilir ki, Ermənistan döyüş meydanında bizə qarşı müqavimət göstərə bilmədiyi üçün mülki əhalini atəşə tutub, hərbi cinayətlər törədib. Uzaqmənzilli ballistik raketlərdən istifadə edib və bunun nəticəsində 100-dən çox mülki şəxs həlak olub, minlərlə fərdi ev və fərdi sahibkarlıq obyekti dağıdılıb. Bu gün dağıntılara məruz qalmış bütün şəhər və rayonlarımızda quruculuq işləri gedir.

Həssas kateqoriyadan olan insanların sağlamlığına qayğı da unudulmur. Görüşdə bildirilib ki, müharibədə əlini, qolunu, ayağını itirmiş hərbçilərimiz üçün ən müasir protezlər sifariş edilib və onlar artıq quraşdırılır. İkinci Qarabağ müharibəsinin 100-dək qazisi ən yüksək keyfiyyətli, dünyanın aparıcı firmalarının istehsalı olan protezlərlə təmin olunub. Bu protezlərlə insan normal yaşaya, yəni gəzə, qaça, futbol oynaya bilər. Bütün bunlarla bərabər, 8400 nəfərə - müharibədə iştirak edən insanlara sosial ödənişlər verilib. Artıq bir neçə reabilitasiya mərkəzi yaradılıb və yaralanmış hərbçilərimiz orada öz sağlamlıqlarını bərpa edirlər.

Dövlətin bu diqqət və qayğısından şəhid ailələrinin və qazilərin nə dərəcədə məmnun olduqlarını onların dilindən eşitməyin öz yeri var. Bu baxımdan döyüşlərdə şəhid olmuş zabit Toğrul Kərimovun həyat yoldaşı Süsən Kərimovanın, Vətən müharibəsi qaziləri Ədalət Aydınovun, Qurbanəli İslamovun söylədikləri əhəmiyyətli idi.

Prezidentimiz onların qarşısında bir daha bəyan etdi: “Bütün şəhid ailələri, Qarabağ qaziləri bilməlidirlər ki, biz daim onların yanındayıq, sözdə yox, əməldə”.

**_Flora SADIQLI,_**
**_“Azərbaycan”_**

# “Dəmir yumruq” öz yerindədir

## Məğlub Ermənistanın istənilən təxribat cəhdinin qarşısı alınacaq

44 günlük müharibədə Azərbaycanın qarşısında ağır məğlubiyyətə uğrayaraq darmadağın olan işğalçı Ermənistanın təcavüzkar hərbi birləşmələri təxribatçı əməllərini davam etdirirlər. İyulun 14-də Ermənistan silahlı qüvvələrinin Ermənistan-Azərbaycan dövlət sərhədinin Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu istiqamətində Azərbaycan Ordusunun mövqelərini atəşə tutması da bunun bariz nümunəsidir.



10 noyabr 2020-ci il tarixində üçtərəfli bəyanatın imzalanması ilə bütün hərbi əməliyyatların dayandırılması nəzərdə tutulmuşdu. Lakin Ermənistan bu bəyanatla öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən boyun qaçırmaq üçün vaxtaşırı təxribat-diversiya aktları törətdi və layiqli cəzasını aldı. Azərbaycan həm təxribatların qarşısını almaqla, həm də qətiyyətli mövqe sərgiləməklə bəyan etdi ki, üçtərəfli bəyanatın bütün tələbləri zamanında, tam və qeyd-şərtsiz yerinə yetirilməlidir. Bir daha sübut olundu ki, Vətən müharibəsində şanlı qələbə qazanmış Azərbaycan yeni reallıqlar yaradıb və istər məğlub Ermənistan, istərsə də onun havadarları bu reallıqları dəyişmək iqtidarında deyil. İstənilən təxribat cəhdinin qarşısı qətiyyətlə alınacaq. Necə deyərlər, “Dəmir yumruq” öz yerindədir.

Dövlət sərhədinin Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu istiqamətində mövqelərimizin atəşə tutulması Ermənistanın və onun havadarlarının regionda sülh və təhlükəsizliyə qarşı növbəti təxribat cəhdidir. Əlbəttə, qeyd etdiyimiz kimi, bütün bu halların qarşısı alınır və alınacaq. Düşmən bundan sonra da yerində oturdulacaq. 44 günlük müharibədə döyüş meydanında gücünü göstərən Azərbaycan Ordusu, o cümlədən Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu öz sözünü deyəcək. Düşmənə də yaxşı məlumdur ki, sentyabrın 27-dən başlayaraq noyabrın 10-dək davam edən, müzəffər Ordumuzun tarixi Qələbəsi ilə nəticələnən müharibədə Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu hərbi qüdrətini necə nümayiş etdirib. Əlahiddə Ümumqoşun Ordu 2018-ci ildəki uğurlu Günnüt əməliyyatından sonra tariximizə şanlı Vətən müharibəsi kimi daxil olan İkinci Qarabağ müharibəsində də yüksək döyüş hazırlığına malik olduğunu sübuta yetirib. Şübhəsiz ki, Əlahiddə Ümumqoşun Ordu Ali Baş Komandanımızın döyüş əmrinə hazır, yüksək döyüş imkanlarına, müasir silah və texnikalara malik qüvvə kimi bundan sonra da həm muxtar respublikanın müdafiəsinin etibarlı təşkilində, həm də Azərbaycanın ərazi bütövlüyünün qorunmasında vacib rol oynayacaq.

Ermənistanın öz havadarlarının dəstəyinə arxalanaraq törətdiyi bu təxribat cəhdi beynəlxalq hüquq normalarına ziddir. Eləcə də bir müddət öncə Türkiyə ilə Azərbaycan arasında imzalanmış və Qars müqaviləsinə istinad edilən Şuşa Bəyannaməsi də ölkəmizin ərazi bütövlüyünə qarşı təhdidlərin qarşısının alınması üçün beynəlxalq hüquqi öhdəlik yaradır. Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, tərəflərin birgə məsləhətləşmələr aparması və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirməsi Şuşa Bəyannaməsində yer alıb. Ona görə də məğlub ölkə və ona dəstək verən dairələr bütün bu reallıqlardan düzgün nəticə çıxarmalı, təxribatçı hərəkətlərə yol verməməlidirlər. Əks halda layiqli cavab almaqla yeni faciə ilə üzləşəcəklər.

**_Siyavuş NOVRUZOV,_**
**_Milli Məclisin Regional məsələlər komitəsinin sədri_**

# Şuşadan dünyaya barışıq və sülh mesajı verildi

## İlham Əliyev fərqli inanclara sahib olan azərbaycanlıları da Qarabağdakı müqəddəs dini ocaqlarda dua etmək xoşbəxtliyinə qovuşdurdu

Əvvəli 1-ci səh.

Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev də ötən illər ərzində ölkəmizdə dini konfessiyaların, din-dövlət münasibətlərinin daha da inkişaf etdirilməsinə öz layiqli töhfəsini verib. Dünyada nümunəvi tolerantlıq məkanına çevrilən Azərbaycanda multikultural dəyərlərin daha da inkişaf etdirilməsi, habelə etnik-dini müxtəlifliyin qorunması, onlara hərtərəfli dəstək göstərilməsi, hər cür şərait yaradılması dövlət siyasətinin əsas istiqamətlərindəndir.

Dövlət-din münasibətləri davamlı olaraq təkmilləşdirilir, tolerantlıq və mədəni müxtəliflik ənənələrinin təbliği cəmiyyətin mənəvi zənginləşməsinə, qarşılıqlı anlaşma münasibətlərinin möhkəmlənməsinə xidmət edir. Azərbaycanın multikulturalizm, tolerantlıq kimi bəşəri dəyərlərə münasibəti beynəlxalq səviyyəli təşəbbüslərdə də özünü göstərir.

Heydər Əliyev Fondu tərəfindən Romada Müqəddəs Marçellinio və Pietro, həmçinin Müqəddəs Sebastian katakombalarının bərpası Azərbaycanın multikultural ənənələrinin daha bir parlaq təcəssümüdür.

### Erməni iştahı kəsildi

Bu cür tolerantlıq ənənəsi və multikultural mühitə dünyanın çox az yerində rast gəlmək mümkündür. Mənfur qonşularımız ermənilərin isə bu kimi insani dəyərlərdən çox-çox uzaq olması real faktdır və bunu barbar xislətli işğalçıların Qarabağda törətdikləri vandal əməllər də sübut edir.

Statistik faktlara əsasən, işğaldan azad olunan ərazilərimizdə tarixi-dini abidələrdən 67-si məscid, 139-u məbəd, 192-si ziyarətgah olub. Həmin 67 məsciddən (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 65-i mənfur ermənilər tərəfindən tamamilə, 2-si isə qismən dağıdılaraq yararsız hala salınıb.

Eyni zamanda Qafqaza gəlmə xalq olduqlarını ört-basdır etmək üçün özlərinə qondarma tarix quraşdırmaq istəyən ermənilər işğal altında saxladıqları Azərbaycan torpaqlarındakı Qafqaz Albaniyasına məxsus abidələrə saxta izlər vuraraq onlara qarşı iddia qaldırmağa cəhd edirlər.

Lakin Prezident İlham Əliyevin Kəlbəcərin işğaldan azad edilməsi ilə əlaqədar xalqa müraciətində də vurğuladığı kimi, Qafqaz Albaniyasına aid olan tarixi abidələr, kilsələr bizim tarixi-mədəni sərvətimizdir: “Tarixə baxmaq kifayətdir, hər kəs görsün ki, 1830-cu illərdə çar Rusiyası alban kilsəsini ləğv etdi, alban kilsəsinin bütün mülkiyyətini erməni Qriqorian kilsəsinə verdi və erməni keşişləri, onların havadarları bu kilsələri mənimsəməyə başladılar. Qafqaz Albaniyasının tarixini silmək, unutdurmaq onların başlıca vəzifəsi idi. Amma biz imkan vermədik”.

Bu da qeyd olunası xoş məqamdır ki, indi Qafqaz Albaniyasının dini varisləri Alban-udi xristian icmasının nümayəndələri Kəlbəcərə səfər edərək Xudavəng monastr kompleksində rahat şəkildə dualarını edə bilirlər...

### Qarabağdakı müqəddəs dini ocaqlarda dua etmək xoşbəxtliyi...

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadənin başçılığı ilə Azərbaycandakı dini konfessiyaların rəhbərlərinin Şuşaya səfəri isə bir daha dünyaya barışıq və sülh mesajı verdi.

İyulun 10-da baş tutan Şuşa səfərində Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri Melih Yevdayev, Bakıdakı Avropa yəhudiləri icmasının rəhbəri Aleksandr Şarovski, Roma-Katolik kilsəsinin Azərbaycandakı ordinarisi Vladimir Fekete, Alban-udi dini icmasının rəhbəri Robert Mobili, Rus Pravoslav kilsəsinin nümayəndələri və Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının üzvləri iştirak ediblər. Onlar Şuşada dini ocaqları ziyarət edib, haqqın nahaqqa qalib gəldiyi bu qədim qaladan bütün bəşəriyyətə dostluq və əmin-amanlıq diləklərini göndəriblər.

Səfər iştirakçıları mayın 12-də Qalib Sərkərdə İlham Əliyev tərəfindən təməli qoyulan və tezliklə dini ocaq və modern memarlıq nümunəsi kimi şəhərin ümumi arxitekturasında baş tacı kimi parlayacaq yeni məscidlə tanış oldular.

Din xadimləri Rus Pravoslav Kilsəsinə də baş çəkib, orada dualar ediblər. Qazançı kilsəsində aparılan təmir-bərpa işləri ilə tanış olan səfər iştirakçılarına məlumat verildi ki, işğal dövründə ermənilər bütün abidələr kimi, bu kilsəni də saxtalaşdırmağa cəhd ediblər. Hazırda kilsə tarixi mənşəyinə uyğun bərpa olunur.

Səfər zamanı Saatlı və Aşağı Gövhər ağa məscidlərini ziyarət edən nümayəndə heyətinə işğal illərində bu dini ocaqların məruz qaldığı dağıntılar, həmçinin hazırda orada aparılan bərpa işləri barədə məlumat verilib.

Yuxarıda Qafqaz Albaniyasının dini varisləri ilə bağlı çəkdiyimiz misaldan da göründüyü kimi, İlham Əliyev fərqli inanclara sahib olan azərbaycanlıları da Qarabağdakı müqəddəs dini ocaqlarda dua etmək xoşbəxtliyinə qovuşdurub.

Bəli, tarixən Şuşada məscidlərlə bərabər kilsələr də fəaliyyət göstərib və bu gün də Şuşa Azərbaycandakı tolerantlığın kiçik bir modeli, multikultural mühitin inikasına çevrilib.

Mənfur ermənilər 30 ildə dini ocaqlarımızı dağıtsalar da, qəlbimizdəki imanı, humanizmi, bəşəri duyğuları söküb ata bilmədilər. Bu gün yenə məscidlərimiz, kilsələrimiz, sinaqoqlarımız insanlarımızın mənəvi saflıq ünvanı kimi birlikdə fəaliyyət göstərirlər.

Necə ki yanvar ayında Şuşaya qələbə yolu ilə səfər edən Ali Baş Komandan İlham Əliyev çıxışı zamanı söyləmişdi: “Biz bütün dinlərin məbədlərini qoruyuruq və qoruyacağıq. Heç kimdə şübhə olmasın. Artıq bunu müstəqillik tarixi də göstərib, müstəqillikdən əvvəlki tarix də göstərib. Bütün dinlərin abidələri bizdə qorunur - kilsələr, sinaqoqlar, o cümlədən erməni kilsəsi Bakının mərkəzində dövlət tərəfindən qorunur, təmir edilib”.

Əhalisinin böyük əksəriyyətinin islam dininə mənsub olmasına baxmayaraq, Azərbaycanda digər dinlərə münasibətdə heç bir ayrı-seçkiliyə yol verilimir, insanların multikulturalizm şəraitində yaşamasına yüksək şərait yaradılır.

Bütün bunlar isə onun göstəricisidir ki, fərqli inanclara, ayrı-ayrı dəyərlərə anlayışla yanaşmaq, onlara ehtiram göstərmək, dözümlü olmaq, birlik, bərabərlik içində yaşamaq Azərbaycan xalqının əsrlərdir genində kodlaşan milli xüsusiyyətidir.

**_Yasəmən MUSAYEVA,_**
**_“Azərbaycan”_**

# Azərbaycan 137 dövlətin vahid səsini ucaldıb

Əvvəli 1-ci səh.

Bu həm də onu göstərir ki, əsas məqsədi beynəlxalq hüquqa hörmət əsasında dünyada sülh, təhlükəsizlik və inkişafa yardım etmək olan hərəkat konkret tarixi kontekstdə yaranmasına baxmayaraq, müasir dünyada da öz aktuallığını itirməyib və bu qurum beynəlxalq münasibətlərin tənzimlənməsində iştirak edən mühüm çoxtərəfli mexanizmlərdən biridir.

İlham Əliyev BMT Baş Assambleyasından sonra ikinci ən böyük siyasi təsisat olan hərəkatın yaradılmasının 60 illiyinin qeyd edildiyini vurğulayaraq dedi ki, təməlində sülh, multikulturalizm və qlobal həmrəyliyin möhkəmləndirilməsi dayandığından mürəkkəb qlobal çətinliklər hərəkatın əhəmiyyətini daha da artırıb.

Azərbaycanın hərəkata üzvlüyü və sədrliyi dövrünü də dəyərləndirən Prezident dedi ki, bütün ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmət, habelə ölkələrin daxili işlərinə qarışmamaq, digər prinsipləri təşviq edən tarixi “Bandunq prinsipləri” ölkəmizin xarici siyasətinin prioritetləri ilə tam uyğundur. Bu səbəbdən 10 il əvvəl Azərbaycan Qoşulmama Hərəkatı ailəsinin üzvü oldu. Qısa müddət ərzində ölkəmiz hərəkatda olduqca böyük nüfuz və etimad qazandı və 2016-cı ildə bütün üzv dövlətlərin yekdil qərarı ilə 2019-2022-ci illər üçün Qoşulmama Hərəkatına sədrlik ölkəmizə həvalə edildi.

2019-cu ilin oktyabr ayında Bakıda Qoşulmama Hərəkatının XVIII Zirvə görüşü uğurla təşkil edildi və Azərbaycan sədrliyi öz üzərinə götürdü. Zirvə görüşünün Azərbaycanda keçirilməsi müstəqillik tarixində ən böyük siyasi tədbir idi. Əgər 2011-ci ildə 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməyimiz böyük diplomatik uğur idisə, Qoşulmama Hərəkatına sədrliyin Azərbaycana həvalə olunması qlobal miqyasda artan nüfuzun əyani təzahürü oldu.

Bakı Zirvə görüşündəki çıxışında Prezident vurğulamışdı ki, Qoşulmama Hərəkatının digər təsisatlarla dialoqunun inkişaf etdirilməsi və əməkdaşlığın coğrafiyasının genişləndirilməsi Azərbaycanın sədrliyinin prioritetləri sırasında olacaq. Belə də oldu. Qısa zamanda Azərbaycan hərəkata sədrliyi dövründə digər beynəlxalq təsisatlarla körpülərin yaradılmasına müvəffəq oldu. Tarixdə ilk dəfə Avropa İttifaqının rəhbərləri Qoşulmama Hərəkatının yuxarıda qeyd olunan onlayn Zirvə görüşündə iştirak etdilər. Daha sonra Avropa İttifaqına üzv dövlətlər Qoşulmama Hərəkatının BMT Baş Assambleyasının Xüsusi Sessiyasının keçirilməsi təşəbbüsünü dəstəklədilər. Qoşulmama Hərəkatı və Avropa İttifaqı BMT-nin İnsan Hüquqları Şurası çərçivəsində bir sıra məsələlərlə bağlı əməkdaşlıq edir.

Prezident eyni zamanda söylədi ki, Azərbaycan Qoşulmama Hərəkatının vahid səsini ucaldaraq, hərəkatın maraqlarını bütün mümkün beynəlxalq platformalarda müdafiə etmişdir. Ölkəmiz hərəkat çərçivəsində həmrəyliyin artırılması, beynəlxalq arenada təşkilatın mövqeyinin və nüfuzunun gücləndirilməsi sahəsində birgə səylər göstərməkdə davam edəcək.

### İlham Əliyevin qlobal təşəbbüsləri, pandemiyaya qarşı mübarizə tədbirləri

İlham Əliyevin söylədiyi kimi, Azərbaycan özünün Qoşulmama Hərəkatına sədrliyi dövrü üçün müfəssəl və ambisiyalı fəaliyyət planı qəbul etdi. Təəssüflər olsun ki, COVID-19 pandemiyası ağır fəsadlar verdi, yeni reallıqlar və çətinliklər yaratdı. Ancaq yeni reallıqlara hər zaman çevik və adekvat reaksiya verən Azərbaycan regional və qlobal miqyasda da koronavirusa qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfə verdi. Böhrandan az itki ilə çıxmaq üçün tədbirlər gördü, həmçinin təcrübəsini hərəkata üzv dövlətlər və başqa ölkələrlə də bölüşdü.

Bu məsələyə də toxunan Prezident dedi ki, Azərbaycan səylərini pandemiyanın yaratdığı misilsiz çətinliklərə qarşı hərəkatın beynəlxalq səviyyədə səmərəli və birgə cavabının formalaşdırılması üzərində cəmləşdirdi.

Bütün bunlarla yanaşı, Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan pandemiyaya qarşı qlobal səylərin səfərbər edilməsi üçün bir sıra beynəlxalq təşəbbüslə çıxış etdi.

İlham Əliyev Qoşulmama Hərəkatının Təmas Qrupu ölkələrinin Zirvə görüşünün keçirilməsi təşəbbüsünü irəli sürdü və 2020-ci il mayın 4-də həmin tədbiri təşkil etdi. Təmas Qrupunun dünyanın müxtəlif regionlarını təmsil edən üzvləri ilə yanaşı, onlayn Zirvə görüşündə BMT-nin Baş katibi, BMT Baş Assambleyasının sədri, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, Afrika İttifaqı Komissiyasının sədri, Avropa İttifaqının Ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti də iştirak etdilər. Qoşulmama Hərəkatının onlayn Zirvə görüşünün praktiki nəticəsi olaraq, Hərəkata üzv ölkələrin əsas humanitar və tibbi ehtiyaclarını əhatə edən məlumat bazası yaradıldı. Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizədə Qoşulmama Hərəkatına üzv ölkələrin mövcud ehtiyaclarının müəyyənləşdirilməsi üçün həmin məlumat bazasını istinad mənbəyi kimi istifadə edir.

Zirvə görüşü zamanı İlham Əliyev hərəkat adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində koronavirusla mübarizəyə həsr edilmiş Xüsusi Sessiyasının keçirilməsini təklif etdi. Ümumilikdə həmin təşəbbüs BMT-yə üzv olan 150-dən çox dövlət tərəfindən dəstəkləndi və 2020-ci il dekabrın 3-4-də Xüsusi Sessiya baş tutdu.

Prezident vurğuladı ki, Azərbaycan pandemiya ilə mübarizə sahəsində Qoşulmama Hərəkatı ölkələri də daxil olmaqla, 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı edib. Bununla yanaşı, Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə yardımı edib ki, bunun da yarısı Qoşulmama Hərəkatının üzv dövlətləri üçün nəzərdə tutulub.

İlham Əliyev qlobal səhiyyə böhranı fonunda “peyvənd millətçiliyi” ilə bağlı narahatçılığa da diqqət çəkərək dedi ki, Azərbaycan ehtiyaclarından qat-qat artıq peyvənd tədarük edən bəzi ölkələrin davranışını ictimai şəkildə qınayıb: “Bu günədək dünyada mövcud olan peyvəndlərin 82 faizdən çoxu zəngin dövlətlər tərəfindən alınıb, azgəlirli ölkələrin payına düşən peyvənd həcmi isə yalnız 0,9 faiz təşkil edir. Belə münasibət inkişaf etməkdə olan, xüsusilə də az inkişaf etmiş ölkələrin öz əhalisini qorumaq imkanına mane olur”.

Bu məsələyə münasibətdə Azərbaycan BMT-nin İnsan Hüquqları Şurasında Qoşulmama Hərəkatı adından bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsinə dair qətnamə irəli sürüb və həmin qətnamə cari ilin mart ayında yekdilliklə qəbul edilib. Bununla yanaşı, Azərbaycan hər fürsətdə inkişaf etmiş ölkələri və beynəlxalq donor təşkilatlarını inkişaf etməkdə olan, xüsusilə də az inkişaf etmiş ölkələrə pandemiya ilə mübarizə sahəsində yardım etməyə çağırır.

### Azərbaycanın şanlı Qələbəsi Qoşulmama Hərəkatı dəyərlərinin təntənəsidir

Prezident həmçinin İkinci Qarabağ müharibəsinin başlanma səbəbləri, şanlı qələbəmiz, məğlub Ermənistanın təxribat xarakterli əməlləri ilə bağlı da toplantı iştirakçılarını məlumatlandırdı. Bildirdi ki, 2020-ci il Azərbaycan üçün əlamətdar il olub, çünki hərəkatın gündəliyində dayanan vacib mövzulardan biri uğurla həll edilib.

Ermənistanın 30 ilə yaxın müddətdə işğal altında saxladığı Azərbaycan torpaqları 44 günlük Vətən müharibəsində azad edilib. Bununla da Azərbaycan 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin ölkəmizin işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsinin icrasını özü təmin edib.

Qeyd edək ki, buna qədər Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və ATƏT daxil olmaqla, bir sıra nüfuzlu beynəlxalq təşkilatlar da buna bənzər qərar və qətnamələr qəbul etmişdi. Lakin Ermənistan aparıcı beynəlxalq təşkilatların tələblərinə məhəl qoymur və status-kvonun saxlanılması üçün oyunlar oynayırdı. Son illər ərzində isə danışıqlar prosesini məqsədli şəkildə pozaraq Azərbaycanı yeni müharibə ilə hədələməsi vəziyyəti tamamən dəyişdi. 44 günlük müharibə nəticəsində tam məğlubiyyətə uğrayan Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktına imza ataraq, Azərbaycanın işğal altındakı digər ərazilərindən qoşunlarını çıxarmağa məcbur oldu.

Beləliklə, Azərbaycan 30 illik münaqişəyə son qoydu, hərbi-siyasi yollarla özünün ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşdu.

İlham Əliyev Azərbaycanın şanlı Qələbəsini beynəlxalq hüququn, ədalətin və Qoşulmama Hərəkatı dəyərlərinin təntənəsi adlandırdı: “Biz Qoşulmama Hərəkatı ölkələrinin beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə müntəzəm dəstəyini yüksək qiymətləndiririk”.

İşğal dövründə Ermənistanın ərazilərimizdə törətdiyi vandalizm barədə də məlumat verən İlham Əliyev vurğuladı ki, bütün bunlara baxmayaraq Azərbaycan azad olunmuş ərazilərdə yenidənqurma işlərinə başlayıb. Qarabağda bu gün müasir şəhərsalma planlaşdırılması həyata keçirilir. Azad edilmiş ərazilər yaşıl enerji zonası olacaq. Azərbaycan transformasiyanın nadir təcrübəsini nümayiş etdirərək, Lüksemburqun ərazisindən dörd dəfə böyük olan dağıdılmış ərazini yüksək yaşayış standartlarına malik firavanlıq məkanına çevirəcək.

Lakin əsas çətinlik Ermənistan tərəfindən basdırılmış çoxsaylı minalardır. 2020-ci il noyabrın 10-da Ermənistan tərəfindən kapitulyasiya aktının imzalanmasından sonra mina partlaması nəticəsində 30-a yaxın Azərbaycan vətəndaşı həlak olub, 100 nəfərdən çox insan yaralanıb. Bundan əlavə, minalar azad olunmuş ərazilərdə yenidənqurma prosesini və məcburi köçkünlərin evlərinə qayıdışını ləngidir. Belə geniş ərazilərin minalardan təmizlənməsi olduqca böyük zaman və resurs tələb edir. Ermənistan mina xəritələrini verməkdən boyun qaçırır. Ona görə də beynəlxalq ictimaiyyət Ermənistanı məcbur etməlidir ki, azad olunmuş bütün ərazilərin mina xəritələrini Azərbaycana versin.

Sonda isə Prezident bir daha əminliklə vurğuladı ki, Azərbaycan Qoşulmama Hərəkatının beynəlxalq nüfuzunun artırılmasına töhfə verilməsi, hərəkat çərçivəsində həmrəyliyin gücləndirilməsi, ədalət və beynəlxalq hüququn müdafiəsi sahəsində əlindən gələni əsirgəməyəcək.

Bütün bunlara əsasən deyə bilərik ki, əgər üçüncü minilliyin başlanğıcında Ulu Öndər Heydər Əliyev ölkəmizi müstəqilliyini itirmək təhlükəsindən qurtararaq yeni inkişaf mərhələsinə çıxardısa, İlham Əliyev müasir Azərbaycanı dünyada söz sahibinə, etibarlı tərəfdaşa və modern dövlətə çevirib. Dövrün çağırışlarının tələblərini nəzərə alan, bütün beynəlxalq toplantılarda dünyaya sülh mesajı verən, ən islahatçı Prezident və ən əsası, Qalib Sərkərdə kimi adını tariximizə qızıl hərflərlə yazdıran İlham Əliyev Qoşulmama Hərəkatının sədri kimi üzərinə düşən barışdırıcı sülh missiyasını uğurla icra etməkdədir.

**_Rəşad BAXŞƏLİYEV,_**
**_“Azərbaycan”_**

# Azərbaycandakı konfessiya rəhbərləri şəhid Polad Həşimovun və İlqar Mirzəyevin məzarlarını ziyarət ediblər

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərliyi ilə müsəlman din xadimləri və Azərbaycanda fəaliyyət göstərən pravoslav, katolik, yəhudi, alban-udi dini konfessiyalarının rəhbərləri Azərbaycanın Milli qəhrəmanları general-mayor Polad Həşimovun və polkovnik İlqar Mirzəyevin İkinci Fəxri xiyabandakı məzarlarını ziyarət ediblər.

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, keçən il iyulun 14-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində gedən şiddətli döyüşlər zamanı müdafiənin ön xəttində qəhrəmancasına şəhid olan general-mayor Polad Həşimov və silahlı qüvvələrimizin 11 zabit və əsgərinin xatirəsi din xadimləri tərəfindən ehtiramla yad edilib. Onların şərəfinə "Qurani-Kərim" tilavət edilib, ruhlarına dualar oxunub, məzarları önünə gül dəstələri düzülüb. Dini konfessiya rəhbərləri Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman döyüşçülər barədə rəhmət duaları ilə çıxışlar ediblər.



Şeyxülislam Allahşükür Paşazadə Vətənimizin işğaldan azad olunması üçün canını fəda etmiş qəhrəman şəhidlərimizi xüsusi ehtiramla yad edərək, ailələrinə səbir və dəyanət, qazilərə şəfaət diləyib. Şeyxülislam bildirib ki, Zəfər və uğur salnaməsi yazmış Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə doğma Qarabağı işğaldan azad edib, əsarətdə olan məscid və məbədlərimizi, milli-mənəvi irsimizi, dini abidələrimizi öz həqiqi sahiblərinə qaytarıb, şəhidlərimizin qanını yerdə qoymayıb. Bu gün Azərbaycan xalqı qüdrətli dövlət başçısının rəhbərliyi ilə əzəli torpaqlara Böyük Qayıdışı təmin etmək, dağıdılmış bölgəmizə yeni nəfəs vermək, Qarabağda müasir, yüksək səviyyədə həyat şəraiti yaratmaq istiqamətində fövqəladə zəhmətlər reallaşdırır. "Dindarlar və din xadimləri adından dövlət rəhbərliyinin bu məsuliyyətli dönəmdəki fədakar fəaliyyətlərinə minnətdarlığımızı ifadə edir, Uca Allahdan onların səylərinə rəvac diləyirik. Allah cümlə şəhidlərimizə rəhmət etsin!", - deyə A.Paşazadə qeyd edib.

Anım mərasimində ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların nümayəndələrindən Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Konstantin (Pimenov), Dağ yəhudiləri dini icmasının rəhbəri Melih Yevdayev, Roma Katolik kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete, Avropa yəhudiləri dini icmasının sədri Aleksandr Şarovski və digərləri iştirak ediblər.

# Tovuz döyüşləri şəhidlərinin xatirəsi yad edilmişdir




Məlum olduğu kimi, Azərbaycanın Zəfər tarixinin başlanğıcı hesab edilən Tovuz döyüşlərində ordumuzun 12 hərbi qulluqçusu - general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayorlar Namiq Əhmədov və Anar Novruzov, baş leytenant Rəşad Mahmudov, gizirlər İlqar Zeynallı və Yaşar Babayev, çavuş Vüqar Sadıqov, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçuları Elşad Məmmədov, Elçin Mustafazadə, Nazim İsmalıyov və əsgər Xəyyam Daşdəmirov qəhrəmancasına şəhid olmuşlar.

Tovuz hadisələri zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən xüsusi qəhrəmanlıq göstərdiklərinə görə general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyev Prezidentin sərəncamları ilə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşlər.

İyulun 14-də Tovuzda keçirilən anım mərasimində Azərbaycanın Milli qəhrəmanları general-mayor Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin və adlarını ehtiramla çəkdiyimiz digər şəhidlərin xatirəsi yad olunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Şəhidin xatirəsi doğum günündə yad edildi

Samux rayonunun Çobanabdallı kəndində doğulub boya-başa çatmış və Vətən müharibəsində qəhrəmanlıq göstərərək şəhid olmuş Məmmədli Həsən Qəhrəman oğlunun ad günü münasibətilə inşa edilmiş ehsan bulağının açılışı olmuşdur.



Samux Rayon İcra Hakimiyyətinin, Gənclər və İdman İdarəsi əməkdaşlarının, şəhidin yaxınlarının, eləcə də döyüş yoldaşlarının iştirak etdiyi açılış mərasimində çıxış edənlər Həsən Məmmədlinin keçdiyi şərəfli döyüş yolundan danışmışlar. Şəhidin vaxtilə təhsil aldığı məktəbin şagirdləri vətənpərvərlikdən bəhs edən şeirlər səsləndirdikdən sonra şəhidin adına tikilmiş ehsan bulağının açılışı olmuşdur. Sonra tədbir iştirakçıları şəhidin uyuduğu məzarını ziyarət etmiş, üstünə tər qərənfillər düzmüşlər.

Qeyd edək ki, Məmmədli Həsən Qəhrəman oğlu ölümündən sonra Prezidentin sərəncamları ilə "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# "Yüksəliş" müsabiqəsinin qaliblərinin adları açıqlanıb

"Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsi qaliblərin adlarını açıqlayıb.

AZƏRTAC xəbər verir ki, müsabiqənin finalında iştirak edən 112 namizəddən 27-si qalib adını qazanıb. Onlar müsabiqəyə müraciət edən 11 min 760 nəfər arasından idarəçilik səriştəsi və bacarıqlarına görə seçilən şəxslərdir.

Qaliblərin adlarını təqdim edirik:

1. Quliyev Orxan Madar oğlu
2. Mürsəlzadə Ziya Məhəmmədəli oğlu
3. Əliyev Fərrux Mübariz oğlu
4. Xəlilova Rzazadə Leyla Qara qızı
5. Yusibov Orxan Aydın oğlu
6. Alıyev Kamil Amil oğlu
7. Hümbətov Cavid Vaqif oğlu
8. Seyranov Xamis Rəşad oğlu
9. Soltanov Elşən Şəmsəddin oğlu
10. Novruzov Nazim Mikayıl oğlu
11. Kərimov Samir Balaxan oğlu
12. Hüseynov Fəxri İslam oğlu
13. Mirzəzadə Elçin Yaşar oğlu
14. Süleyman Turxan Raquf oğlu
15. Mirzəliyev Ruslan Füzuli oğlu
16. Zakirov Orxan Tahir oğlu
17. Cəfərov Cəfər Əbülfət oğlu
18. Məmmədov Məhəmməd İlqar oğlu
19. Qafarzadə Ləman İsbəndiyar qızı
20. Alızadə Ramtiq Natiq oğlu
21. Mirzəzadə Vüqar Yaşar oğlu
22. Feyzullayev Tural Hicrət oğlu
23. Əliyev Semral Adil oğlu
24. Abbasov Saməddin Fəxrəddin oğlu
25. Qazı zadə Orxan Cavanşir oğlu
26. Məlikova Ülkər Mustafa qızı
27. Hidayətli Güldənə Şahin qızı

Müsabiqənin şərtlərinə əsasən, 20 qalibin seçilməsi planlaşdırılsa da, 9 nəfər eyni nəticəni göstərdiyi üçün Təşkilat Komitəsi eyni balı toplayan iştirakçıların hər birinin səriştə və nailiyyətlərinin ədalətli qiymətləndirilməsi baxımından onların qalib elan olunmasına qərar verib. Qaliblərin adları kadr ehtiyatı bankına daxil edilməklə yanaşı, onlar idarəçi rəhbərlər tərəfindən birillik fərdi inkişaf planı (https://yukselish.az/mentors.html) və hər biri 20 min manat məbləğində özünüinkişaf qrantı əldə edəcək.

"Yüksəliş" müsabiqəsi 21-51 yaşlı, ikiillik idarəçilik təcrübəsi olan, ali təhsilli Azərbaycan Respublikasının vətəndaşlarını əhatə edir. Müsabiqə beş mərhələdən - qeydiyyat, onlayn seçim, əyani, yarımfinal və finaldan ibarətdir.

"Yüksəliş" müsabiqəsi Prezident İlham Əliyevin 2019-cu il iyulun 26-da imzaladığı sərəncamla intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektiv rəhbər şəxslərin müəyyənləşdirilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunub.

# Şəhid Tərlan unudulmur




Corat kəndinin girəcəyindəki xatirə lövhəsinin önündən keçənlər Vətən müharibəsində şəhidlik zirvəsinə yüksəlmiş Tərlan Rzayevi ehtiramla yad edirlər.

Tərlan bu kənddə dünyaya göz açıb. Sumqayıtdakı 27 nömrəli orta məktəbdə təhsil alıb. Anası Simnarə xanım deyir ki, Tərlan uşaqlıqdan informasiya texnologiyalarına maraq göstərirdi. Ən böyük arzusu isə polis olmaq, dincliyin, asayişin keşiyində dayanmaq idi.

Vətən müharibəsi başlayanda Tərlan Rzayev Beyləqanda hərbi xidmət edirdi. Silaha sarılan, sinəsini yurda sipər edən 19 yaşlı bu igid Füzuli uğrunda döyüşlərdə şəhadətə qovuşdu. Dövlətimiz Tərlan Rzayevi ölümündən sonra iki medalla təltif edib.

Həmkəndliləri, dostları, Tərlanı tanıyan digər insanlar onu yaddan çıxarmırlar. Şəhidlərimizin xalqın qəlbində həmişə yeri var!

***Yusif MƏMMƏDOV,***
***keçmiş hərbçi***

*Sumqayıt şəhəri*

## Rusiyanın Krasnodar vilayəti və Azərbaycan şirkətləri arasında görüş keçirilib

Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan İşgüzar şuralarının və Rusiya Federasiyasının Krasnodar vilayəti Administrasiyasının dəstəyi ilə Krasnodar və Azərbaycan müəssisələri arasında onlayn formatda işgüzar görüş keçirilib.

İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, tədbirdə AZPROMO, Rusiyanın Azərbaycandakı Ticarət Nümayəndəliyi, Rusiya İxrac Mərkəzi, Krasnodar vilayətinin sənaye siyasəti departamenti və digər təşkilatların nümayəndələrinin ixracın genişləndirilməsi və ticarətin inkişafı istiqamətində dəstək tədbirləri barədə çıxışları dinlənilib. Sonra Krasnodar və Azərbaycan şirkətlərinin nümayəndələri fəaliyyət istiqamətləri barədə təqdimat ediblər. Görüşdə Azərbaycanda yaradılmış əlverişli biznes və investisiya mühiti, "Ələt Azad İqtisadi Zonası" layihəsi və investorlar üçün nəzərdə tutulan güzəştlər barədə məlumat verilib.

Tədbir kənd təsərrüfatı, qida məhsulları, qablaşdırma sənayesi və ixtisaslaşdırılmış avadanlıq istehsalı sahələrində fəaliyyət göstərən sahibkarlar arasında ikitərəfli görüşlərlə davam edib.

## Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi Qurban bayramı ilə bağlı sürücülərə müraciət edib

Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi Qurban bayramı ilə əlaqədar sürücülərə müraciət edib.

İdarədən AZƏRTAC-a bildirilib ki, müraciətdə vətəndaşlara qurbanlıq üçün nəzərdə tutulan satış və kəsim mərkəzlərində olarkən dayanma-durma tələblərini pozaraq yolun hərəkət hissəsini zəbt edib digər vətəndaşlar üçün narahatlığa səbəb olacaq hərəkətlər etməmək, pandemiya şəraitində müəyyənləşdirilmiş qaydalara əməl etmək tövsiyə olunub.

Eyni zamanda, bayramla əlaqədar uzaq məsafələrə şəxsi avtomobillərlə hərəkət edən sürücülərdən nəqliyyat vasitəsinin texniki sazlığına əmin olduqdan sonra yola çıxmaları, istirahət rejiminə və yol hərəkəti qaydalarına əməl etmələri bir daha xahiş edilib.

# Gənclər və İdman Nazirliyi yanında İctimai Şuraya seçkilər keçirilib

İyulun 15-də Gənclər və İdman Nazirliyi yanında İctimai Şuraya seçkilər keçirilib.

AZƏRTAC xəbər verir ki, seçkilər "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 yanvar tarixli Fərmanının 1.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"yə uyğun olaraq təşkil olunub.

Qeydə alınan 43 vətəndaş cəmiyyəti institutu arasında keçirilmiş seçkidə 129 təşkilat səsvermədə təmsil olunub.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının konfrans zalında keçirilən seçkiləri açıq elan edən gənclər və idman nazirinin müavini, seçki komissiyasının sədri İntiqam Babayev İctimai Şuranın əhəmiyyəti, ictimai nəzarətin həyata keçirilməsində dövlət və qeyri-hökumət təşkilatlarının əməkdaşlığından danışıb.

Sonra İ.Babayev 1994-cü ildən nazirliyin yanında yalnız Gənclərlə İş üzrə İctimai Şuranın olduğunu bildirib. O, nazirliyin iki dövlət siyasətini icra etdiyi üçün qanunvericiliyin tələblərinə görə hər iki sahəni təmsil edən vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə Gənclər və İdman Nazirliyi yanında İctimai Şuranın formalaşdırılmasının vacibliyini vurğulayıb və seçkinin tam şəffaf, ədalətli keçirilməsi üçün bütün imkanların yaradıldığını qeyd edib.

Gizli şəkildə keçirilən səsvermənin nəticələrinə əsasən, heç bir vətəndaş cəmiyyəti institutunun nümayəndəsi səslərin çoxluğunu qazana bilməyib. Qanunvericiliyin tələblərinə görə, təkrar seçkilər iyulun 17-də saat 10:00-dan 13:00-dək Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının konfrans zalında keçiriləcək.

Qeyd edək ki, Gənclər və İdman Nazirliyi yanında Gənclərlə İş üzrə İctimai Şura 1994-cü ildən fəaliyyət göstərir. İctimai Şuranın əsas məqsədi dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı qərarların qəbulu prosesində gənclər təşkilatlarının iştirakını təmin etməkdir. İndiyədək şuranın iclaslarında Prezident, Milli Məclis və bələdiyyə seçkilərində gənclərin iştirakı, qanunların və dövlət proqramlarının layihələri, Azərbaycan gənclərinin forumlarının keçirilməsi, gənclərin vətənpərvərlik tərbiyəsi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair faktların dünya ictimaiyyətinə çatdırılması, gənclərin sosial şəbəkələrdə fəaliyyəti və s. məsələlər müzakirə olunub, dünyada və respublikada baş verən mühüm ictimai-siyasi hadisələrə münasibət bildirilib.

# İyun-iyul aylarında 240 kiloqrama yaxın narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində sərhəd mühafizə və əməliyyat-axtarış fəaliyyətləri davam etdirilir.

DSX-nin Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, cari ilin iyun və iyul ayları ərzində Dövlət Sərhəd Xidməti tərəfindən ümumilikdə 239 kiloqram 158 qram narkotik vasitə, 920 ədəd narkotik tərkibli və 150 ədəd güclü təsirli dərman preparatları qanunsuz dövriyyədən çıxarılıb.



Bununla yanaşı, Dövlət Sərhəd Xidmətinin və Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən "Xaş-Xaş-2021" şərti adı altında həyata keçirilmiş kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər nəticəsində iyun ayı ərzində Ağstafa, Qazax, Qubadlı, Yardımlı və Xaçmaz rayonlarının sərhədboyu ərazilərində ümumi çəkisi 9 ton 511 kiloqram olan yabanı halda bitmiş narkotik tərkibli 36 min 125 bitki aşkarlanaraq yandırılma yolu ilə məhv edilib.

Dövlət Sərhəd Xidmətinin Sərhəd Nəzarətinin əməkdaşlarının sayıqlığı və peşəkarlığı nəticəsində axtarışda olan 278 nəfər saxlanılmış, 33 şəxsin sənədlərinin saxtalaşdırılması və 12 şəxsin pasportunun qeyri-fəal olması müəyyən edilib.

Dövlət sərhədindən buraxılış məntəqələrində ölkədən çıxışına məhdudiyyət tətbiq edilmiş 442 nəfər və ölkəyə girişi qadağan olunmuş 16 nəfər şəxs dövlət sərhədindən buraxılmayıb.

# Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları 27 kiloqramdan çox narkotik vasitə və psixotrop maddəni qanunsuz dövriyyədən çıxarıblar

Daxili İşlər Nazirliyinin (DİN) Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi, kultivasiyası, sosial şəbəkələrdə onlayn yolla satışı ilə məşğul olan şəxslərin aşkarlanaraq məsuliyyətə cəlb edilmələri istiqamətində növbəti əməliyyatlar həyata keçirilib.

DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş İdarə əməkdaşlarının Astara rayonunda həyata keçirdikləri əməliyyat zamanı narkotik vasitələrin ölkə ərazisinə qanunsuz yollarla gətirilməsini təmin etməkdə şübhəli bilinən şəxs, əvvəllər məhkum olunmuş Şıxəli Fətullayev saxlanılıb. Onun Astara rayonu ərazisində dağlıq və meşəlik sahədə gizlətdiyi yerdən ümumilikdə 5 kiloqram 385 qram heroin aşkarlanıb.

Baş İdarə əməkdaşlarının Yevlax rayonunda həyata keçirdikləri digər bir əməliyyat zamanı isə narkotik vasitələrin qanunsuz kultivasiyası ilə məşğul olan Səbuhi Məmmədov saxlanılıb. Onun yaşadığı Aşağı Qarxun kəndindəki evinin həyətinə baxış zamanı 9 kiloqram 450 qram qurudulmuş marixuana və 7 kiloqram 800 qram yaş halda çətənə kolu aşkarlanıb. Səbuhi Məmmədov çətənə kollarını satmaq məqsədi ilə xüsusi qulluq edərək yetişdirdiyini bildirib.

Baş Narkotiklərlə Mübarizə İdarəsi əməkdaşlarının daxil olan əməliyyat məlumatı əsasında Binəqədi rayonunda həyata keçirdikləri daha bir əməliyyat zamanı isə paytaxt sakinləri Vüqar Hüseynov və Kamil Rəşidov saxlanılıblar. Onların üzərilərindən və Kamil Rəşidovun idarə etdiyi "Ravon" markalı avtomobilə baxış zamanı ümumilikdə 9 kiloqram heroin və 1 kiloqram 50 qram "patı" və "şüşə" kimi tanınan psixotrop maddə - metamfetamin aşkarlanıb. İlkin dindirmə zamanı Vüqar Hüseynov narkotik vasitələri sosial şəbəkələrdə tanış olduğu xarici ölkələrdən birinin vətəndaşının Binəqədi rayonu ərazisində əvvəlcədən yerləşdirdiyi yerdən satmaq məqsədilə əldə etdiyini bildirib. Vüqar Hüseynovun həmyerlisi Kamil Rəşidovla birlikdə həmin narkotik vasitələri, yəni, heroini və "patı" adlanan metamfetamini Bakı şəhərində müxtəlif ünvanlara qoymaqla ayrı-ayrı şəxslərə çatdırılmasını və satışını təşkil etməyi planlaşdırdığı məlum olub.

Baş İdarə əməkdaşlarının Yasamal və Xətai rayonlarında həyata keçirdikləri əməliyyat zamanı narkotik vasitə və psixotrop maddələrin satışı ilə məşğul olan Vüsal İbrahimov və Babək Ağayev saxlanılıblar. Həmin şəxslərdən, həmçinin onların yaşadıqları ünvanlardan müvafiq olaraq 21 və 165 qram metamfetamin, eləcə də heroin aşkar edilib.

Paytaxtın Nizami rayonunda həyata keçirilən digər bir əməliyyat zamanı isə narkotik vasitələrin satışı ilə məşğul olan iki nəfər - əvvəllər məhkum olunmuş Elşən Əyyubov və Samir Əliquliyev tutulublar. Onlardan ümumilikdə 7 qrama yaxın narkotik vasitə və metamfetamin aşkar olunub.

Baş İdarə əməkdaşlarının Nərimanov rayonunda həyata keçirdikləri növbəti əməliyyat zamanı narkotik vasitə və psixotrop maddələrin satışı ilə məşğul olan Azər Fətullayev yaxalanıb. Onun üzərinə baxış zamanı ümumilikdə 725 qram heroin və "patı", "şüşə" adlanan psixotrop maddə metamfetamin aşkarlanaraq götürülüb.

Xəzər rayonunda həyata keçirilən əməliyyat zamanı isə narkotik maddələrin satışı ilə məşğul olan Binə qəsəbə sakini Cavid Cəfərov və Buzovna qəsəbə sakini Şahrza Məlikov saxlanılıblar. Onlardan müvafiq olaraq 150 və 67 qram heroin və metamfetamin aşkar edilib.

Əməliyyatlar zamanı Baş İdarənin əməkdaşları tərəfindən ümumilikdə 27 kiloqramdan artıq narkotik vasitələr və psixotrop maddələr qanunsuz dövriyyədən çıxarılıb.

Faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanıb və adları sadalanan şəxslər tutularaq istintaqa cəlb olunublar. Cinayət işləri üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Qeyd edək ki, Yasamal, Xətai, Nizami, Nərimanov və Xəzər rayonlarında həyata keçirilən əməliyyatlar Baş İdarənin sosial şəbəkələrdəki yeni yaradılan səhifələrinə ayrı-ayrı vətəndaşlar tərəfindən göndərilən məlumatlar əsasında həyata keçirilib. Baş İdarə həmin məlumatları göndərən şəxslərə təşəkkürünü bildirir.

# Şükürbəyli-Cəbrayıl-Hadrut yeni avtomobil yolunun tikintisi davam edir






İşğaldan azad edilmiş ərazilərdə yol infrastrukturunun yenidən qurulması və müasirləşdirilməsi istiqamətində genişmiqyaslı tikinti işləri aparılır. Bu cür layihələrdən biri olan Şükürbəyli-Cəbrayıl-Hadrut yeni avtomobil yolunun tikintisi sürətlə davam etdirilir.

Dövlət başçısının tapşırığına əsasən, sözügedən avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun inşa edilir. Yolboyu 6 avtomobil körpüsü və 11 yeraltı keçidin də tikintisi aparılır.

AZƏRTAC xəbər verir ki, martın 15-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Füzuli və Xocavənd rayonlarına səfəri zamanı Şükürbəyli-Cəbrayıl-Hadrut yeni avtomobil yolunun təməlqoyma mərasimindən dərhal sonra layihənin icrasına start verildi.

Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Cəbrayıl rayonu Şükürbəyli kəndindən keçən hissəsindən götürməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinə qədər uzanır. Tikintisi aparılan yolun uzunluğu 39.7 kilometrdir.

İş həcmi və layihənin qısa müddət ərzində yekunlaşdırılması tapşırığı nəzərə alınaraq tikintini Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "13 N-li Xüsusi Təyinatlı Yol İstismarı" MMC ilə subpodratçı olaraq yol tikintisi sahəsində ixtisaslaşmış yerli şirkət "Körpü-Bina-Tikinti" MMC birgə icra edir.

Hazırda sözügedən avtomobil yolu boyunca torpaq işləri aparılır. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yolun genişləndirilərək profilə salınması və I texniki dərəcəyə uyğun 21.5 metr enində yeni torpaq yatağının inşası işləri aparılır. Bunun üçün tikinti ərazisinə lazımi sayda qüvvə cəlb edilib. İnşa edilən yolun hərəkət hissəsi 14 metr, çiyinlər isə 2x1,5 metr təşkil edəcək. Həmçinin tikinti ərazisinə cəlb olunmuş xüsusi texnikaların çevik hərəkətinin təmin olunması məqsədilə yol çiyinlərinin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi işləri də paralel olaraq aparılır.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Anar Nəcəfli deyib ki, tikinti işləri "İnşaat Norma və Qaydaları"nın tələblərinə əsasən, agentliyin rəhbərliyinin birbaşa nəzarəti altında həyata keçirilir. Yol boyunca layihəyə uyğun olaraq suların ötürülməsini təmin etmək məqsədilə 38 dairəvi boru və 7 düzbucaqlı suötürücü, həmçinin yolun 1, 18, 19, 26, 30 və 38 km-lik hissələrində olmaqla 6 yeni avtomobil körpüsü inşa edilir. Körpülərdən biri Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolu ilə kəsişmədə layihələndirilib. Bununla da sözügedən avtomobil yolundan magistral yola rahat giriş-çıxış təmin olunacaq. Bununla yanaşı, tikiləcək yolun ətraf mühitə, o cümlədən faunaya mənfi təsirini azaltmaq məqsədilə 11 yerdə yolaltı keçidlərin tikintisi də aparılır.

Yolun tikintisinin qısa müddət ərzində icra edilməsini təmin etmək məqsədilə ərazidə düşərgənin inşası artıq bitmək üzrədir. Düşərgədə asfalt-beton zavodu, maşın-mexanizmlərin saxlanılması və xidməti üçün xüsusi ərazi, həmçinin işçilər üçün hər bir şəraiti olan ofis, yeməkxana və dincəlmək üçün yerlər qurulur.

Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolu işğaldan azad edilmiş Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindən keçir. Avtomobil yolu Hadrut qəsəbəsi və Cəbrayıl şəhəri də daxil olmaqla sözügedən rayonların 20-yə yaxın yaşayış məntəqəsini əhatə edəcək.

Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin nəqliyyat, rabitə və yüksək texnologiyalar İşçi Qrupu çərçivəsində digər aidiyyəti dövlət qurumları ilə koordinasiyada həyata keçirilən bu yol layihəsi Qarabağın vahid nəqliyyat konsepsiyasının ayrılmaz tərkib hissəsini təşkil edir.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# Makronu Yerevana çəkən nədir

## Erməni sevgisi, yoxsa seçki dərdi

Nikol Paşinyan parlament seçkilərində qalib gəldikdən sonra bu dəfə Ermənistanın "böyük bacısı" Fransada Emmanuel Makron seçki dərdinə düşüb. O, yenidən prezident olmaq üçün Fransadakı erməni diasporunun dəstəyini qazanmağa can atır.



Xatırladaq ki, 2017-ci ildə böyük səs çoxluğu ilə həm prezident, həm də parlament seçkilərini qazanan Makronun Respublika Yürüşü Hərəkatı son bələdiyyə seçkilərində eyni nailiyyəti göstərə bilmədi. Bəlli oldu ki, Makron hakimiyyətinin ümumxalq gözündən düşməsinin əsas səbəbi Fransa Prezidentinin özünün yol verdiyi, yumşaq desək, nöqsanlarıdır.

Bütün uğursuzluqlarına baxmayaraq, Makron 2022-ci ildə keçiriləcək prezident seçkiləri üçün ötən ildən ciddi cəhdlə çalışır. Hətta bunun üçün erməni diasporunun dəstəyinə ümid edir və məqsədinə çatmaq naminə beynəlxalq hüququ belə ayaq altına atır. Yoxsa ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi tərəfsiz olmalı olan Fransanın Ermənistanı, onun işğalçı siyasətini dəstəkləməsinə başqa nə ad vermək olar?! Bu azmış kimi, Makron Ermənistana səfərə hazırlaşır və bununla bir daha sübut edir ki, o, tərəfsiz "hakim" statusu adını daşımağa layiq deyil.

Ümumiyyətlə, Makron prezidentliyi dövründə yalnız populist vədlər verir. Maraqlı məqam isə ondan ibarətdir ki, populizm Makronu və Paşinyanı birləşdirən əsas göstəricilərdir. Hər ikisi onlara qarşı çıxanları inzibati üsullarla sıradan çıxarmağa üstünlük verir. Belə ki, hər iki ölkədə keçirilən etiraz aksiyaları zamanı polis zorakılığa əl atır, xəbərdarlıq etmədən etirazçılara qarşı gözyaşardıcı qaz və su şırnaqlarından istifadə edir. Nəticədə etirazçılarla polislər arasında ciddi qarşıdurma yaşanır.

Qəribədir ki, kütləvi aksiyalar keçirən etirazçılara qarşı Fransa polisinin həyata keçirdiyi zorakılıq halları ilə bağlı beynəlxalq təşkilatlar hər hansı bir bəyanatla çıxış etmirlər, onlar sanki Fransada baş verən zorakılıq hallarını görmürlər. Görmürlər ki, demokratiyadan, insan haqlarından dəm vuran və bunu başqa dövlətlərə qarşı xüsusi təzyiq vasitəsi kimi istifadə edən Fransanın özündə vətəndaşlar kütləvi olaraq polis zorakılığına məruz qalırlar.

Görəsən, niyə? Cavab məlumdur: Fransa və onun Prezidenti özlərinkidir, necə ki, Makron Ermənistanı və Paşinyanı açıq-aydın özününkü hesab edir.

Ermənistandan söz düşmüşkən. Bu arada parlament seçkilərindən sonra Ermənistanda hakimiyyət və müxalifət arasında ziddiyyətlərin daha da böyüməsi, tərəflərin qisas əməliyyatına başlayacağı haqda verilən proqnozlar artıq özünü doğruldur. Belə ki, Nikol Paşinyanın hakimiyyətdə qalması fonunda onun inzibati üsullarla rəqiblərini sıradan çıxarması müşahidə edilir. Xatırladaq ki, hələ seçkidən əvvəl Paşinyan onun yanında yer almayan məmurlara qarşı sərt mübarizəyə başlayacağını bildirmişdi.

Ermənistanın "Hayeli" nəşri yazır ki, Paşinyan artıq dediklərini edir. Bildirilir ki, Zəngəzurda müxalif mövqeli məmurların və digər qüvvələrin zərərsizləşdirilməsi də bununla bağlıdır: "Seçkilərdən sonra hakimiyyət güc qollarını işə salıb və sözün əsl mənasında, hakimiyyətə qarşı çıxmış, yaxın keçmişdə Paşinyanın istefasını tələb etmiş sünikli icma başçılarına qarşı siyasi vendetta həyata keçirir".

Məsələn, Ermənistanın hüquq mühafizə orqanları Qacaran meri Manvel Paramazyanın evində, ofisində və Zəngəzur mis-molibden kombinatında axtarış aparıblar. Paramazyan bir müddət öncə baş tutan seçkidə Robert Koçaryanın "Ermənistan" blokunu dəstəkləyib. Zəngəzur mis-molibden kombinatına gəlincə isə bu müəssisənin səhmdarlarından biri məhz "Ermənistan" blokunun liderlərindən sayılan Vaqe Akopyandır. Paşinyan onu da hədələyib. Bu şəxslərin həbsi Robert Koçaryanın ilk növbədə iqtisadi dayaqlarının sıradan çıxarılması deməkdir.

"Azatutyun" radiosu bildirir ki, Milli Təhlükəszilik Xidməti (MTX) əməkdaşları Manvel Paramazyanın evində, ofisində və qarajında axtarış apardıqdan sonra onu Yerevana aparıblar. Lakin MTX bu xəbərlərlə bağlı heç bir informasiya vermir. Qacaran merinin vəkili Yervand Varosyan qeyd edir ki, ona bu iş barədə heç nə məlum deyil. O güman etdiyini bildirib ki, müştərisini hansısa absurd qanunsuz torpaq alqı-satqısında şübhəli bilirlər. Varosyan deyib ki, onun fikrincə, bütün bunlar hakimiyyət tərəfindən rəqib siyasi qüvvələrə qarşı daha bir şounun düzəldilməsi üçün bəhanədir.

Yervand Varosyan bildirir ki, bunlar Qacaranda 20 iyun seçkisində Robert Koçaryanın "Ermənistan" blokunun qalib gəlməsi ilə bağlıdır: "Belə görünür ki, bu iş tam perspektivsizdir, lakin hakimiyyət tərəfindən bu işlər davam etdiriləcək. "Ermənistan" bloku Qacaranda ən çox səs qazanandan sonra bunlar bizim üçün gözlənilən idi". Bir daha xatırladırıq ki, 20 iyun seçkisində "Ermənistan" bloku Nikol Paşinyanın əsas rəqibi idi.

İndi Makrondan soruşmaq lazımdır ki, onu belə bir ölkəyə çəkən nədir: erməni sevgisi, yoxsa seçki dərdi?

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

*Leyla Abdullayevadan Ermənistan baş nazirinin müavininə cavab:*

# "İndi populizm deyil, real işlərlə məşğul olmağın zamanıdır"

"Görünür, Tiqran Avinyan unudub ki, artıq seçkilər geridə qalıb, indi populizm deyil, real işlərlə məşğul olmağın zamanıdır".




AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbəri Leyla Abdullayeva Ermənistan baş nazirinin müavini Tiqran Avinyanın "Qarabağın statusu məsələsi həll olunmayanadək sülh müqaviləsi olmayacaq" bəyanatını şərh edərkən deyib.

O qeyd edib ki, ümumiyyətlə, Ermənistan rəsmilərinin bölgədə yaranan yeni reallıqla uzlaşmayan və sülhü hər hansı əsassız məsələlərlə şərtləndirməyə çalışan bəyanatları, ilk növbədə, elə bu ölkənin özünə qarşıdır. Bölgədə sülh, təhlükəsizlik və tərəqqinin əldə edilməsinin ən yaxşı vasitəsi münasibətlərin normallaşmasıdır, bunun təməlində isə beynəlxalq hüquq prinsiplərinə hörmət və riayət dayanır. Bu, Azərbaycanın hər zaman nümayiş etdirdiyi mövqedir. Ərazilərimizin işğalı amilinin aradan qaldırılması ilə biz qonşu Ermənistanla münasibətlərin normallaşmasına hazır olduğumuzu bəyan etdik, yeni əməkdaşlıq təşəbbüslərini dəstəklədik. Çünki biz destruktivlik deyil, konstruktivlik tərəfdarıyıq.

Leyla Abdullayeva bildirib: "Qondarma "status" məsələsinə istinadlara gəldikdə, xatırlatmaq istərdik ki, bu xüsusda Azərbaycanın mövqeyi dəfələrlə və ən yüksək səviyyədə bəyan edilib. Dövlət başçımız iyulun 14-də səsləndirdiyi çıxışında bir daha vurğuladı: "Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur. Dağlıq Qarabağ yoxdur, Qarabağ var. İyulun 7-də imzaladığım fərman əsasında Qarabağ iqtisadi zonası yaradıldı. Bütün Qarabağa aid olan rayonlar orada birləşib".

Eyni zamanda, biz bəzi xarici nümayəndələr tərəfindən də oxşar fikirlərin irəli sürüldüyünü müşahidə edirik. Təəssüf ki, bu insanların səsləndirdiyi boş vədlər və xülyalar Ermənistana yaxşı heç nə vəd etmir. Ermənistan bunu dərk etməli, keçmişdən və tarixdən nəticə çıxarmalıdır".

# Göygöl rayonunda mülki şəxs minaya düşərək həlak olub

İyulun 14-də saat 21.00 radələrində bir nəfərin Göygöl rayonu ərazisində minaya düşərək həlak olması barədə rayon prokurorluğuna məlumat verilib.

Göygöl Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, prokurorluq və polis əməkdaşları tərəfindən Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin əməkdaşlarının iştirakı ilə hadisə yerinə baxış keçirilib.

Araşdırmalarla müəyyən edilib ki, iyulun 14-də Göygöl rayonunun Mollacəlilli kənd sakini 1990-cı il təvəllüdlü Ocaqquluyev Ramal Kamal oğlu Vətən müharibəsinədək Azərbaycan Ordusunun döyüş mövqeləri ilə Ermənistan silahlı qüvvələrinin mövqeləri arasındakı minalanmış ərazi hesab olunan, Göygöl rayonu ilə işğaldan azad edilmiş Kəlbəcər rayonu arasında yerləşən "Bənövşəli yaylağı" adlanan ərazidə kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olarkən piyada əleyhinə minaya düşüb. Nəticədə həmin şəxs aldığı xəsarətlərdən hadisə yerində ölüb.



Faktla bağlı Göygöl Rayon Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin 120.2.4-cü və digər maddələri ilə cinayət işi başlanıb.

Hazırda istintaq davam edir.

# Kəlbəcər rayonu istiqamətində mövqelərimiz atəşə tutulub

İyulun 15-i saat 14:15 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zərkənd kəndi ərazisində yerləşən mövqelərdən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Yuxarı Ayrım kəndi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qarşı tərəfin susdurulması məqsədilə cavab atəşi açılıb.Azərbaycan Ordusunun şəxsi heyəti arasında həlak olan və yaralanan yoxdur.

# Beynəlxalq aləm

## Afrində kütləvi məzarlıqlar aşkarlanmışdır



Afrin şəhərində terrorçu PKK təşkilatının Suriyadakı qanadı olan YPG silahlıları tərəfindən öldürülmüş 61 nəfərin cəsədi aşkarlanmışdır. Bu barədə Türkiyənin Hatay vilayətinin qubernatoru Rəhmi Doğan məlumat vermişdir.

Onun dediyinə görə, YPG/PKK terrorçuları Suriyada insanlığa qarşı cinayətlər törətmişlər və bu günlərdə terrorçuların qurbanlarının növbəti kütləvi məzarlığı tapılmışdır. Təəssüf ki, bu, son rəqəm deyil. Məzarlıqlar ətrafında axtarışlar davam edir.

Doğan xatırlatmışdır ki, ötən ay YPG/PKK terrorçuları Afrində xəstəxananı atəşə tutmuşdular və nəticədə 14 nəfər həlak olmuşdur.

## Alimlər dünyada anomal temperaturlara görə həlak olanların sayını hesablayıb



Anomal yüksək və anomal aşağı temperaturlar dünyada hər il 5 milyondan çox insan ölümünə səbəb olur. Bu qənaətə alimlərin beynəlxalq qrupu gəlmişdir. Müvafiq tədqiqatın nəticələri "The Lancet Planetary Health" juranlında dərc edilmişdir.

Ölüm halları və temperatur barədə informasiya 2000-2019-cu illər dövrü üçün təhlil edilmişdir. Həmin müddətdə qlobal temperaturlar orta hesabla 0,26 dərəcə artırdı. Alimlər temperaturlar və ölüm əmsalları diapazonlarını 5 qitədə 43 ölkə üçün hesablamışlar. Məlum olmuşdur ki, dünyada ölüm hallarının 9,43 faizi ekstremal soyuq və yüksək temperaturlarla əlaqəlidir. Hazırda əlavə 10 ölüm halından 9-u soyuğa görə baş verir. Lakin karbon qazının antropogen tullatınlarına görə planet istiləşdikdən sonra vəziyyət dəyişəcək. Ekspertlər qeyd edirlər ki, Afrikada və Asiyada hər il soyuqdan orta hesabla müvafiq olaraq 2,4 milyon və 1,18 milyon adam vəfat edir. İstidən baş verən ölüm hallarına gəldikdə isə, ən yüksək göstəricilər Asiya (224 min) və Avropanın (178 min 700) payına düşür. 2000-2019-cu illərdə soyuqla bağlı ölüm halları 0,51 faiz azalmış, istidən baş verən ölüm halları isə 0,21 faiz artmışdır.

Alimlərin proqnozuna əsasən, gələcəkdə temperaturun artması səbəbindən dünyada hər 100 min nəfərə 74 ölüm halı gözlənilir.

## Fransada etirazçılara qarşı gözyaşardıcı qazdan istifadə olundu



Bastiliyanın alınması günü bütün Fransada, o cümlədən paytaxt Parisdə hökumətin tətbiq etdiyi "vaksin pasportları" və tibb işçilərinin məcburi immunlaşdırılması ilə narazı olanların etiraz aksiyaları keçirilmişdir.

Kütləvi etirazlarda Prezident Emanuel Makrona çoxdandır müxalifətdə olan "sarı jiletlər" fəal iştirak etmişlər. "Tibbi aparteidin" əleyhdarları polisə daşlar və şüşə qablar atmış, onlar isə cavabında gözyaşardıcı qazdan və təzyiqli sudan istifadə etmişlər.

Bu günlərdə Makron bildirmişdir ki, ölkədə tibb işçilərinin və qocalar evlərinin əməkdaşlarının məcburi vaksinasiyası tətbiq olunur. Vətəndaşlar həmçinin restoranlara və kafelərə getmək hüququ verən "sanitar vəsiqələr" almalıdırlar.


**BİLDİRİŞ**

Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi tərəfindən "Lövhə və stendlərin hazırlanması xidmətinin satın alınması" üzrə keçirilmiş kotirovka sorğusunun qalibi "FORMUN AF" MMC olmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

**BİLDİRİŞ**

Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi tərəfindən "Bərk inventarın satın alınması" üzrə keçirilmiş kotirovka sorğusunun qalibi "FLOYD" MMC olmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

MİDA

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin

## növbəti layihəsi – Sumqayıt şəhərində inşa olunmuş binalarda yerləşən mənzillərin güzəştlə satışı barədə

# ELAN

Sumqayıt şəhəri, 41-ci məhəllə, Zəminə Həsənova küçəsində yerləşən 1 və 2 saylı binalar üzrə hər birində 72 mənzil olmaqla, ümumilikdə 144 mənzilin güzəştlə satışı 17 avqust 2021-ci il tarixində saat 11:00-da başlayacaq və 24 avqust 2021-ci il tarixi saat 11:00-dək davam edəcəkdir.

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq **gözləmə qaydasında mənzillərin seçimi** 20 avqust 2021-ci il tarixində saat 11:00-da başlayacaq və 24 avqust 2021-ci il tarixi saat 11:00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərində (**www.e-gov.az**) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq, mənzillərin seçimində bərabər hüquqa malikdir.

"Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla **www.mida.gov.az** və **www.mida.az** internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

### Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa ümumilikdə 144 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin 04.06.2019-cu il tarixli 27459 nömrəli müsbət rəyi mövcuddur.

**Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 2 saylı Sumqayıt Ərazi İdarəsi tərəfindən mənzillərə mülkiyyət hüquqlarına dair "hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış"lar verilmişdir.**

| Bina № | Binanın yerləşdiyi tikinti sahəsi ($m^2$) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi ($m^2$) | Mənzillərin xarici perimetr üzrə sahəsi ($m^2$) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 779,2 | 9 | 2 | Studio tipli | 18 | 34,9 | 43,1 | "Amal Group" MMC ("NN Group" MMC ilə konsorsium) / Bakı, Yasamal, Məhəmməd İbn Hinduşah Naxçivani küçəsi, ev 22, mənzil 90 | 26.01.2021 |
| | | | | 2 | 36 | 56,6 | 68,34 - 68,71 | | |
| | | | | 3 | 18 | 74,5 | 87,06 | | |
| 2 | 779,2 | 9 | 2 | 1 | 18 | 35,5 | 43,02 | "Amal Group" MMC ("NN Group" MMC ilə konsorsium) / Bakı, Yasamal, Məhəmməd İbn Hinduşah Naxçivani küçəsi, ev 22, mənzil 90 | 26.01.2021 |
| | | | | 2 | 36 | 56,6 | 68,34 - 68,71 | | |
| | | | | 3 | 18 | 74,5 | 87,06 | | |

### Satış şərtləri və qiymətlər:

Bu elan çərçivəsində mənzillərin satışı həm **ipoteka kreditindən istifadə etməklə**, həm də **öz vəsaiti hesabına** ödəniş üsulu ilə nəzərdə tutulmuşdur.

***Qeyd:*** *"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 5.6-cı bəndinə əsasən mənzilin dəyərinin* ***ipoteka krediti hesabına ödəniş üsulunu yalnız ilkin razılıq qərarını alaraq elektron kabinetində yerləşdirilməsini təmin etmiş şəxs seçə bilər.***

Studio tipli mənzillərin qiyməti – **29 665** manat,

1 otaqlı mənzillərin qiyməti – **30 175** manat,

2 otaqlı mənzillərin qiyməti – **48 110** manat,

3 otaqlı mənzillərin qiyməti – **63 325** manatdır.

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | | |
|---|---|---|---|---|---|---|
| | | | *Studio tipli* | *1 otaqlı* | *2 otaqlı* | *3 otaqlı* |
| 4% | 3-30 il | 10% | **128 manat** | **130 manat** | **207 manat** | **272 manat** |

* Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda.

**DİQQƏT! Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10% endirim əldə edəcək.**

**Mənzilə öz vəsaiti hesabına birdəfəlik ödəniş edərək sahib olmaq istəyən vətəndaş üçün mənzillərin satışı aşağıdakı qiymətlərdən başlayır:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| Studio tipli | 29 665 | 2 966 | 26 699 |
| 1 | 30 175 | 3 017 | 27 158 |
| 2 | 48 110 | 4 811 | 43 299 |
| 3 | 63 325 | 6 332 | 56 993 |

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər, agent banklar haqqında məlumatla tanış olmaq, habelə ipoteka və güzəştli mənzil kalkulyatorları vasitəsilə müvafiq hesablamaları aparmaq **www.sumqayit.mida.gov.az** internet səhifəsi üzərində mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, gözləmə qaydasında mənzillərin seçimi və mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla **www.mida.gov.az** və **www.mida.az** internet səhifələrində və ya müvafiq "ASAN xidmət" mərkəzlərinə (1, 3, 5 saylı, Sumqayıt və Gəncə), habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış ola bilərlər.

***Qeyd:*** *"Güzəştli mənzil" sisteminin istifadəçiləri satış modulundan istifadəyə dair və gözləmə qaydasında mənzil seçiminə dair təlimatlar ilə öz elektron kabinetlərinin müvafiq bölmələrində və ya* ***www.mida.gov.az*** *və* ***www.mida.az*** *internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış ola bilərlər.*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 21 may 2021-ci il tarixdə **www.etender.gov.az** portalında, 21 may 2021-ci il tarixdə "Azərbaycan" qəzetində özünüməşğulluq tədbirlərini həyata keçirmək məqsədilə respublikanın rayonları üzrə əhalinin özünüməşğulluğunun təmin olunması ilə bağlı fotoaparatlar üçün obyektivlərin satın alınmasına dair dərc edilmiş açıq tenderdə Tender komissiyasının qərarı ilə "Lotus Co" QSC müsabiqənin qalibi elan olunmuşdur.

Qalib təşkilatla satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 21 aprel 2021-ci il tarixdə **www.etender.gov.az** portalında, 21 aprel 2021-ci il tarixdə "Azərbaycan" qəzetində kompüter və digər texniki avadanlıqların satın alınmasına dair dərc edilmiş açıq tenderdə Tender komissiyasının qərarı ilə "B2B Group" MMC müsabiqənin qalibi elan olunmuşdur.

Qalib təşkilatla satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 30 aprel 2021-ci il tarixdə **www.etender.gov.az** portalında, 30 aprel 2021-ci il tarixdə "Azərbaycan" qəzetində maliyyə məsləhət xidmətlərinin satın alınmasına dair dərc edilmiş açıq tenderdə Tender komissiyasının qərarı ilə "UHY Audit" MMC müsabiqənin qalibi elan olunmuşdur.

Qalib təşkilatla satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu tərəfindən 22.06.2021-ci il tarixdə elan edilmiş avtonəqliyyat vasitələrinin təmiri xidmətlərinin satın alınması üzrə kotirovka sorğusu prosedurunda "Afon Qrup" MMC qalib seçilmişdir.

Qalib təskilatla 13.07.2021-ci il tarixdə satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti avtoșinlərin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 29 iyul 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 17.06.2021-ci il tarixli nömrəsində dərc edilmiş Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarında quraşdırılmış yanğınsöndürmə qurğularına, sistem və avadanlıqlarına texniki xidmətin satın alınması və Azərbaycan Respublikası Mərkəzi Bankının Bakı şəhəri, Bülbül prospekti, 27 ünvanında yerləşən inzibati binasının server otağında yanğın təhlükəsizliyi ilə bağlı işlərin və mal-materialların satın alınması üzrə açıq tenderlər Tender komissiyasının 15.07.2021-ci il tarixli qərarına əsasən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

***Tender komissiyası***


## OXUCULARIN NƏZƏRİNƏ!
## "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 4278
Sifariş 1254
Qiyməti 40 qəpik